RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 114 (10134) 2 iyul 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Çox mühüm mərhələ



## Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycana işgüzar səfər edib

**İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə təkbətək və geniş tərkibdə görüşü olub.**

**Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen mətbuata bəyanatlarla çıxış ediblər.**

2-3

### İLHAM ƏLİYEV:

"Bu gün hər ölkə üçün enerji təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm amilidir. Azərbaycan böyük dərəcədə siyasi səylər qoymuş, diplomatik fəaliyyət aparmış və həmçinin neftimizin, qazımızın nəqli üçün infrastrukturun qurulmasına maliyyə sərmayələri yatırmışdır. "Cənub qaz dəhlizi" ümumi fəaliyyətimizin gözəl nümunəsidir. Bu gün 3500 kilometrlik vahid boru kəməri sistemləri təbii qazın Azərbaycandan Avropaya nəqlində əsas arteriya hesab edilir.

Bağlantı birmənalı olaraq müzakirələrimizin mühüm hissələrindən biridir. Azərbaycan regional daşımalar layihələrinin bir çox hallarda fəal iştirakçısı və təşəbbüskarıdır. "Şərq-Qərb" və "Şimal-Cənub" daşımalar dəhlizləri Azərbaycandan keçir və qonşularımızla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri bizə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaratdı".

### URSULA FON DER LYAYEN:

"Bakıya qayıtmaq xoşdur. Bu, möhtəşəm şəhərdir, burada zəngin və qədim irs cazibəli müasir memarlıqla qovuşur. Bu, bu gün gördüyümüz Azərbaycanın gələcəyə yönəlmiş planlarının təzahürüdür. Bu gün mən Avropa İttifaqı üçün olduqca əhəmiyyətli tərəfdaşlığı dərinləşdirmək məqsədilə buradayam. Bu tərəfdaşlıq Prezidentin indicə təsvir etdiyi kimi real təkana malikdir. Lakin ilk növbədə icazə verin, bu regionda bir neçə onilliklər baxımından baş vermiş ən mühüm hadisəyə istinad edim. Sülh. İcazə verin, Ermənistanla tarixi sülh müqaviləsini başlatmağınız münasibətilə Sizi təbrik edim. Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Avropa İttifaqı bu prosesi qəti şəkildə dəstəkləyir. Biz bunu davam etdirəcəyik. Biz kağız üzərində sülhü birlikdə real sülhə çevirə bilərik. Məhz buna görə biz bu gün burada birlikdə çalışırıq".

## Azərbaycanın rəqəmsal transformasiyası

### Həyata keçirilən sistemli islahatlar yaxın gələcəkdə ölkəmizi regionun ən güclü rəqəmsal və innovativ mərkəzinə çevirəcək



Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında müşavirədən ötən dövrdə görülən işlər, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti müzakirə olundu. Mehriban xanım Əliyeva bildirdi ki, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası şuranın əsas fəaliyyət istiqamətidir: "Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır".

9

## Dövlətə və xalqa xidmətin şərəfli salnaməsi

Azərbaycan Prezidenti daxili işlər orqanlarının xidməti şəraitinin yaxşılaşdırılmasını, şəxsi heyətin fəaliyyət səmərəliliyinin və peşəkarlığının artırılmasını, sosial rifahının gücləndirilməsini hər zaman diqqət mərkəzində saxlayır. Dövlət başçısı 2018-ci il iyulun 2-də Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə polis orqanlarının şəxsi heyətinə müraciətində bu məqamlara diqqət çəkmişdir: "Ölkəmizdə siyasi sabitlik, əmin-amanlıq hökm sürür, qanunun aliliyi təmin edilir, insan hüquqları ədalətli şəkildə qorunur. Hazırda Azərbaycan polisi güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki imkanlarla təchiz edilmiş, dövlətçiliyimizin qorunması işində önəmli xidmətləri olan mühüm dövlət təsisatıdır. Dövlət tərəfindən daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daim kompleks tədbirlər həyata keçirilir və bu sahədə dövlət qayğısı gələcəkdə də davam etdiriləcək. Öz növbəsində Azərbaycan polisi fəaliyyətini müasir tələblərə uyğun təkmilləşdirməli, cinayətkarlığa qarşı mübarizəni daha böyük əzmlə və qətiyyətlə aparmalıdır".



Prezidentin bu sözləri Azərbaycan polisinin müstəqilliyimizin və daxili sabitliyimizin qorunmasındakı strateji roluna verilən yüksək hüquqi-siyasi qiymətdir. Daxili işlər orqanlarının fəaliyyətinə verilən bu ali qiymət həm də ölkədəki dayanıqlı tərəqqinin və investisiya mühitinin birbaşa təhlükəsizlik amili ilə bağlı olduğunu nümayiş etdirir.

7

## Türk dünyasının yeni əsri - gələcəyə hesablanan sarsılmaz birlik



Qarabağ Zəfərindən sonra regionda yaranmış yeni geosiyasi reallıq da bu əməkdaşlıq üçün geniş imkanlar açdı. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütövlükdə türk dünyasının siyasi nüfuzunu artırdı. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bölgənin beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinə inteqrasiyası, irəli sürülən yeni təşəbbüslər isə türk dövlətləri arasında əlaqələri daha da möhkəmləndirdi.

Bu gün Azərbaycanın həyata keçirdiyi siyasət türk dünyasının gələcəyinə hesablanıb. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Zirvə görüşlərində səsləndirdiyi fikirlər ortaq məsuliyyət, qarşılıqlı etimad və həmrəylik prinsiplərinə əsaslanan inkişaf modelinin aydın ifadəsidir. Bu siyasət türk dünyasının beynəlxalq münasibətlər sistemində nüfuzunun daha da artmasına xidmət edir.

"Türk Dünyası Həftəsi" çərçivəsində keçirilən elmi konfranslar, forumlar, səfərlər, mədəni tədbirlər də sübut edir ki, ortaq tarix həm də gələcəyin inkişaf proqramıdır. Elm, təhsil, rəqəmsal texnologiyalar, innovasiya, mədəniyyət və humanitar əməkdaşlıq sahələrində irəli sürülən təşəbbüslər gələcək nəsillərin daha sıx inteqrasiyasına möhkəm zəmin yaradır.

9

◆ Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana işgüzar səfəri

# Çox mühüm mərhələ

## Prezident İlham Əliyev ilə təkbətək görüş



İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə təkbətək görüşü olub.

## Prezident İlham Əliyevin Avropa Komissiyasının prezidenti ilə geniş tərkibdə görüşü olub



**İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın bu gün Avropa İttifaqının strateji tərəfdaşı olduğunu deyən Ursula fon der Lyayen bildirdi ki, Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlər möhkəm təməllər üzərində inkişaf edir.

Qonaq Prezident İlham Əliyevin sülh gündəliyinin təşəbbüskarı rolunda çıxış etməsinin və bu xüsusda göstərdiyi liderliyin yüksək qiymətləndirildiyini vurğuladı.

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, dayanıqlı sülhün təmin olunması, ikitərəfli ticarət münasibətlərinin başlanması, həmçinin Azərbaycandan Ermənistana neft və neft məhsullarının ixracı və üçüncü ölkələrdən Ermənistana ixrac olunan məhsulların Azərbaycan ərazisindən tranzit keçidi müsbət dəyərləndirildi.

Ursula fon der Lyayen dedi ki, Avropa İttifaqı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə hərtərəfli dəstək göstərməyə hazırdır.

Söhbət zamanı Mərkəzi Asiya ilə Avropa arasında regional bağlantılarda Azərbaycanın vacib rolu qeyd olundu, ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində roluna toxunularaq, onun etibarlı tərəfdaş olması, xüsusilə 2022-ci ildən sonra ölkəmizdən Avropa İttifaqına qaz ixracının həcminin artması məmnunluqla qeyd edildi.

# Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen iyulun 1-də mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım prezident, hörmətli qonaqlar, xanımlar və cənablar.

Xanım prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyimə çox şadam. Biz ötən ilin may və oktyabr aylarında Avropa Siyasi Birliyinin Zirvə görüşlərində iki dəfə görüşmüşük və ikitərəfli gündəliyimizi, həmçinin bir çox digər məsələləri geniş müzakirə etmişik.

Yeri gəlmişkən, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlərin çox mühüm mərhələsindəyik. Bu ilin martında biz Avropa İttifaqı Şurasının prezidenti cənab Koştanı, sonra may ayında isə Avropa diplomatiyasının rəhbəri xanım Kallası qəbul etdik. Bu gün isə Avropa Komissiyasının prezidenti bizimlədir.

Beləliklə, deyərdim ki, əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk. Bu gün xanım prezident və nümayəndə heyətləri ilə birgə çox böyük təəssürat bağışlayan gündəliyi geniş şəkildə müzakirə etdik.

Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır. Əlbəttə ki, biz enerji sahəsində əməkdaşlığımızı geniş müzakirə etdik və həmçinin xanım prezidentin Azərbaycana dörd il əvvəlki səfəri də olduqca əhəmiyyətli idi.



Bu baxımdan biz enerji sahəsində Strateji Tərəfdaşlıq Haqqında Anlaşma Memorandumunu imzaladıq və həmin vaxtdan etibarən Avropa İttifaqının üzv dövlətlərinə Azərbaycanın təbii qaz ixracı təxminən 65 faiz artmışdır. Bu gün qaz ixracımızın yarısı Avropa İttifaqının üzv dövlətlərinə gedir və bütövlükdə Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır, bu coğrafiyanı genişləndirmək potensialı da mövcuddur.

Bu gün hər ölkə üçün enerji təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm amilidir. Azərbaycan böyük dərəcədə siyasi səylər qoymuş, diplomatik fəaliyyət aparmış və həmçinin neftimizin, qazımızın nəqli üçün infrastrukturun qurulmasına maliyyə sərmayələri yatırmışdır. "Cənub qaz dəhlizi" ümumi fəaliyyətimizin gözəl nümunəsidir. Bu gün 3500 kilometrlik vahid boru kəməri sistemləri təbii qazın Azərbaycandan Avropaya nəqlində əsas arteriya hesab edilir.

Bağlantı birmənalı olaraq müzakirələrimizin mühüm hissələrindən biridir. Azərbaycan regional daşımalar layihələrinin bir çox hallarda fəal iştirakçısı və təşəbbüskarıdır. "Şərq-Qərb" və "Şimal-Cənub" daşımalar dəhlizləri Azərbaycandan keçir və qonşularımızla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri bizə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaratdı.

Bu gün Azərbaycandan keçən yüklərin həcmi bütün istiqamətlərdə artır. Biz Azərbaycanda və qonşuluqda daşımalar infrastrukturuna böyük sərmayələr yatırdıq və bunu davam etdiririk. Yeni geosiyasi vəziyyətə gəldikdə isə görürük ki, ticarət üçün dəniz limanlarımızın, dəmir yolu infrastrukturunun imkanlarının genişləndirilməsinə ehtiyac duyulur. Bütün bunları biz cədvələ və öz maliyyə imkanlarımıza uyğun edirik.

Avropa Komissiyası ilə münasibətlərimizin kifayət dərəcədə yeni hissəsi bərpaolunan enerji ilə bağlıdır. Biz xanım prezidentlə həmçinin Azərbaycanın Günəş, külək və su elektrik enerji potensialını, o cümlədən artıq mövcud ötürmə xətlərini və tikiləcək yeni xətləri geniş şəkildə müzakirə etdik. Bu baxımdan biz həmçinin strateji tərəfdaş ola bilərik.

Mən xanım prezidentə məlumat verdim ki, indiyədək xarici və yerli şirkətlərlə imzalanmış müqavilələr bizə növbəti beş və ya altı il ərzində səkkiz giqavat Günəş və külək enerjisini əldə etmək imkanı verəcək. Bunlar yalnız imzalanan müqavilələrə aiddir və öz növbəsində müqavilə öhdəliyi deməkdir. Lakin birmənalı olaraq, daha çox həcmlər olacaq.

Əlbəttə ki, regional təhlükəsizlik məsələlərini, xüsusən də uğurla gedən Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesini geniş şəkildə müzakirə etdik. Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı ilə Ermənistan və Azərbaycan Birgə Bəyannaməni imzaladılar. Prezident Tramp həmçinin şahid kimi imzaladı və əlavə olaraq Ermənistan ilə Azərbaycan sülh sazişinin mətnini parafladılar. Beləliklə, de-fakto sülh qurulub və biz faydasını görürük.

Sülhü təkcə kağız üzərində deyil, gündəlik həyatda hiss etdiyimizi nümayiş etdirmək üçün bir çox birtərəfli addımlar atdıq. Azərbaycan öz ərazisi ilə Ermənistana daşınan yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırıb. Həmin məhdudiyyətlər beynəlxalq səviyyədə tanınmış ərazilərimizin Ermənistan tərəfindən işğalı səbəbindən tətbiq edilmişdi. Biz həmçinin çox mühüm yanacağı, xüsusən də benzin və dizeli Ermənistana təchiz etməyə başlamışıq. Bu günün geosiyasi vəziyyətinə gəldikdə, onun əhəmiyyəti heç zaman olmadığı qədər daha da artır.

Beləliklə, biz göstəririk ki, sülh bizim üçün artıq hiss olunan məfhumdur, onu hiss edə bilirik və sülh şəraitində yaşamağı öyrənirik. Torpaqlarımız 30 il ərzində işğal altında qalmışdı. Biz suverenliyimizi, ərazi bütövlüyümüzü güc və siyasi vasitələrlə bərpa etdik. Biz Ermənistana sülh təklif etmişik.

Bir sözlə, sülh artıq reallıqdır. Lakin biz onu gücləndirmək, uzunmüddətli və əbədi etmək üçün ürəkdən çalışmalıyıq. Əlbəttə, biz Avropa Komissiyasının dəstəyini çox yüksək dəyərləndiririk.

Xanım prezident həmçinin mənə məlumat verdi ki, Avropa Komissiyası çox kömək edə bilər və bunu arzulayır. Bu baxımdan biz hər hansı köməyi, hər hansı yardımı yüksək dəyərləndirərdik. Düşünürəm ki, bütün bunlar regiondakı dinamikanı gücləndirərək Cənubi Qafqazı hər hansı ərazi iddialarından, hər hansı münaqişədən azad, tərəfdaşlıq, əməkdaşlıq və sülh regionuna çevirəcək.



Xanım prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizə xoş səfər arzu edirik.

❖ ❖ ❖

Sonra Avropa Komissiyasının prezidenti bəyanatla çıxış etdi.

### Prezident Ursula fon der Lyayenin bəyanatı

- Prezident Əliyev, səmimi qəbulunuza görə təşəkkür edirəm.

Bakıya qayıtmaq xoşdur. Bu, möhtəşəm şəhərdir, burada zəngin və qədim irs cazibəli müasir memarlıqla qovuşur. Bu, bu gün gördüyümüz Azərbaycanın gələcəyə yönəlmiş planlarının təzahürüdür. Bu gün mən Avropa İttifaqı üçün olduqca əhəmiyyətli tərəfdaşlığı dərinləşdirmək məqsədilə buradayam. Bu tərəfdaşlıq Prezidentin indicə təsvir etdiyi kimi real təkana malikdir. Lakin ilk növbədə icazə verin, bu regionda bir neçə onilliklər baxımından baş vermiş ən mühüm hadisəyə istinad edim. Sülh. İcazə verin, Ermənistanla tarixi sülh müqaviləsini başlatmağınız münasibətilə Sizi təbrik edim. Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Avropa İttifaqı bu prosesi qəti şəkildə dəstəkləyir. Biz bunu davam etdirəcəyik. Biz kağız üzərində sülhü birlikdə real sülhə çevirə bilərik. Məhz buna görə biz bu gün burada birlikdə çalışırıq.

Bu məni bu gün açıqlayacağım ilk xəbərə gətirib çıxarır. Biz bağlantı vasitəsilə sülhü gücləndirmək istəyirik. Biz "Qlobal Qapılar" Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda nəqliyyata, enerjiyə və rəqəmsal keçidlərə 200 milyon avroya qədər qrant şəklində sərmayə yatıracağıq. Bunun dövlət və özəl sərmayələr formasında 2 milyard avroya qədər vəsaitləri cəlb etmək potensialı var. Layihələrə Naxçıvandan keçən dəmir yolu bağlantısı və ya Bakı limanının inkişaf etdirilməsi daxil ola bilər.

Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir. Onun strateji əhəmiyyəti artmaqda davam edir.

*Ardı 3-cü səh.*

◆ Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana işgüzar səfəri

# Çox mühüm mərhələ

## Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 2-ci səh.*





Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik. Bu, nəqliyyat, enerji və rəqəmsal bağlantını əhatə etməklə Yüksəksəviyyəli Bağlantı Dialoqu ilə sıx bağlıdır. Həmçinin yaxşı olardı ki, burada - Bakıda Regional Bağlantı Sərmayə Konfransının təşkil edilməsi üzərində də işləyək. Beləliklə Avropanı, Cənubi Qafqazı və Mərkəzi Asiyanı bir araya gətirəcəyik.

Açıqladığım ikinci yeni xəbər 20 milyon avro dəyərində olan sülhün inkişafı proqramı ilə bağlıdır. Biz sülhün regionda bərqərar olmasına, sülhün verdiyi faydaların insanların, sərhəd regionlarında yaşayanların gündəlik həyatlarında görünməsinə birlikdə kömək etmək istəyirik. Biz məsələn, təcili yardım maşınlarının təchiz olunması ilə daha yaxşı səhiyyəyə sərmayə yatıracağıq. Biz həmçinin minatəmizləmə vasitəsilə təhlükəsizliyə diqqət yetirəcəyik. Biz kənd yerlərinin inkişafı, suyun təchizatı, bu günün dili ilə desək, dəqiq əkinçilik və bu kimi sahələr vasitəsilə daha güclü yerli icmaların inkişafına sərmayə yatıracağıq və əlbəttə ki, kiçik və orta müəssisələrə dəstək göstərəcəyik.

İndi isə icazə verin, enerjiyə keçim. O, tərəfdaşlığımızın ən güclü pillələrindən biri kimi qalmağa davam edir. Son illərdə Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı olduğunu sübuta yetirmişdir. Biz Rusiyanın enerjini silah kimi istifadə etdiyi və qazı kəsdiyi zaman Azərbaycanın irəliyə çıxdığını unutmamışıq. "Cənub qaz dəhlizi" həqiqətən, Avropanın enerji təhlükəsizliyini gücləndirib və bu, heyrətamiz uğur hekayəsidir. Mən buna görə Sizə təşəkkürümü ifadə etmək istəyirəm. İndi biz növbəti səhifəni hazırlayırıq. Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır. Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır. Beləliklə, biz bərpaolunan enerji mənbələri, elektrik enerjisinin qarşılıqlı nəqli və regional enerji şəbəkələri kimi sahələrdə əməkdaşlığımızı dərinləşdirmək üçün nəhəng potensialı görürük. Azərbaycanı Avropa İttifaqı ilə birləşdirən "Yaşıl Enerji Dəhlizi"ni qurmaq üçün planlarınızı alqışlayırıq. Bərpaolunan enerji mənbələrinin daha çox istehsalı ixrac üçün daha artıq qaza qənaət edə və qonşularla bölüşərək regional enerji təhlükəsizliyini gücləndirə bilər. Biz Sizin Ermənistana gedən elektrik enerjisi kabeli ilə bağlı təklifinizi çox alqışlayırıq. Bu, çox maraqlı məqamdır. Beləliklə, mənim təsvir etdiklərim əsasən odur ki, bərpaolunan enerji mənbələri iqtisadiyyatlarımızın gələcəyini irəli aparır. Burada - Cənubi Qafqazda bu proseslər, həmçinin sülhün irəli aparılmasına kömək edə bilər.

Nəhayət, biz iqtisadi tərəfdaşlığımızın dərinləşdirilməsi yollarını müzakirə etdik. Avropa İttifaqı artıq Azərbaycanın ən böyük ticarət tərəfdaşı və ən iri sərmayədarıdır. Hazırda bu işi davam etdirmək istəyirik. Yeni hərtərəfli saziş üzərində müzakirələrin yenidən başlanması vacib bir addımdır. Bu, Azərbaycan ilə Avropa İttifaqı arasında hətta daha çox ticarətin aparılması üçün imkanlara yol aça bilər və biz bu məsələdə tərəqqiyə nail olmaq üçün birlikdə çalışacağıq.

Prezident Əliyev, Avropa İttifaqı bu regionun parlaq gələcəyinə inanır. Beləliklə gəlin, dinc Cənubi Qafqaz naminə, Avropaya, Xəzər regionuna və Mərkəzi Asiyaya bağlantısı olan Cənubi Qafqaz naminə, aramızdakı həmişəkindən daha güclü tərəfdaşlıq naminə birlikdə çalışaq. Çox sağ olun.

## Prezident İlham Əliyevin sosial media hesablarında Ursula fon der Lyayenin Azərbaycana səfəri ilə bağlı videoçarx paylaşılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri ilə bağlı videoçarx paylaşılıb.



## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen iyulun 1-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Avropa İttifaqının bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayeni hava limanında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Avropa İttifaqının (Aİ) genişlənmə üzrə komissarı Marta Kos və digər rəsmi şəxslər qarşıladılar.



## Kanadanın General-Qubernatoru zati-aliləri xanım Luiza Arbura

Hörmətli xanım General-Qubernator!

Kanada Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Kanada arasındakı əlaqələr xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da qarşılıqlı hörmət, dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, xalqınıza daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

## Somali Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Şeyx Mahmuda

Hörmətli cənab Prezident!

Somali Federativ Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dostluğa və qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Somali əlaqələri inkişaf edir və genişlənir. İnanıram ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, qarşılıqlı fəaliyyətimizin potensialından tam istifadə olunması və əməkdaşlığımızın genişləndirilməsi üçün birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

# Baş nazir Əli Əsədov BMT Baş katibinin Yol Təhlükəsizliyi üzrə xüsusi elçisi ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 1-də BMT Baş katibinin Yol Təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todt ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə BMT arasında müxtəlif istiqamətlərdə uğurla inkişaf edən əməkdaşlıqdan məmnunluq ifadə olunub.

BMT Baş katibinin Yol Təhlükəsizliyi üzrə xüsusi elçisinin mandatı çərçivəsində qlobal yol hərəkəti təhlükəsizliyinin təşviqi istiqamətində aparılan fəaliyyət yüksək qiymətləndirilib.

Azərbaycanda yol hərəkəti təhlükəsizliyinin təmin olunması, yol-nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun inkişaf etdirilməsi, rəqəmsal həllərin tətbiqi vasitəsilə nəqliyyat sisteminin təkmilləşdirilməsi sahəsində həyata keçirilən ardıcıl islahatlar barədə bəhs olunub.

Görüşdə yol hərəkəti təhlükəsizliyi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Bakıda ABŞ-nin Müstəqillik Günü qeyd edilib

**İyulun 1-də Bakıda ABŞ-nin müstəqilliyinin elan olunmasının 250-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, ABŞ-nin ölkəmizdəki səfir-liyinin təşkil etdiyi tədbirdə əvvəlcə Azərbaycanın və ABŞ-nin Dövlət himnləri səslən-dirilib.

Səfirliyin müvəqqəti işlər vəkili Emi Karlon deyib ki, 250 il ərzində ABŞ azadlıq, innovasiya, sahibkarlıq və inkişaf prinsipləri üzərində formalaşıb. Bu dəyərlər ölkənin iqtisadiyyatında, elmi nailiyyətlərində, mədəniyyətində və texnoloji tərəqqisində öz əksini tapıb.

Sülhün siyasi cəsarət və uzaqgörən liderlik tələb etdiyini deyən Emi Karlon qeyd edib ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən tarixi Sülh Sammitində Prezident Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan onilliklər davam edən münaqişədən sonra yeni səhifə açaraq gələcəyi qarşıdurma deyil, əlaqələr, əməkdaşlıq və rifah üzərində qurmaq öhdəliyi götürdülər. Bu sülhün yaratdığı imkanlar artıq görünür. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP), eləcə də ABŞ-Azərbaycan Strateji Tərəfdaşlığı çərçivəsində Cənubi Qafqazın Şərqlə Qərbi birləşdirən, ticarəti genişləndirən, enerji təhlükəsizliyini gücləndirən və iqtisadi inkişaf üçün yeni imkanlar yaradan inteqrasiya olunmuş regiona çevrilməsi istiqamətində birgə fəaliyyət göstərilir.

O bildirib ki, fevral ayında Prezident İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Cey. Di. Vens tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası üç əsas istiqamətə - regional bağlantı, iqtisadi investisiya və innovasiya, həmçinin təhlükəsizlik sahəsində əməkdaşlığa əsaslanır.

"Əsrin müqaviləsi"ndən "Cənub qaz dəhlizi"nədək ABŞ hökuməti və şirkətləri Azərbaycanın mühüm enerji ölkəsi kimi inkişafını dəstəkləyiblər. Hazırda isə enerji, süni intellekt, data mərkəzləri və digər qabaqcıl texnologiyalar sahəsində yeni investisiyalar üzərində işləyirik. Ötən ay "Bakı Enerji Həftəsi" və ABŞ-Azərbaycan İqtisadi Dialoqu çərçivəsində ABŞ şirkətləri Azərbaycan tərəfdaşları ilə qabaqcıl materiallar, süni intellekt, bulud texnologiyaları və digər yeni texnologiyalar sahələrində 8 milyard ABŞ dollarından çox dəyərində sazişlər imzalayıblar. Bu investisiyalar və təhlükəsizlik sahəsində əməkdaşlıq regionda davamlı sülhə töhfə verəcək. ABŞ Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. ABŞ Azərbaycanda investisiyaları, dialoqu və sülh naminə diplomatik səyləri dəstəkləyib. Bu əməkdaşlığı gələcəkdə də davam etdirmək niyyətindəyik", - deyə diplomat qeyd edib.

Azərbaycan hökuməti adından Amerika xalqını Müstəqillik Günü münasibətilə təbrik edən Baş nazirin müavini Samir Şərifov qeyd edib ki, Azərbaycan ABŞ ilə 34 il əvvəl diplomatik münasibətlər qurduqdan sonra iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın, eləcə də qarşılıqlı maraq doğuran digər sahələrdə əlaqələrin inkişafına hər zaman önəm verib və bu istiqamətdə müvafiq səylər göstərib. Onun sözlərinə görə, ABŞ-nin təşəbbüsü ilə yaradılmış beynəlxalq terrorizmə qarşı Qlobal Koalisiyada Azərbaycanın iştirakı, eləcə də qlobal enerji təhlükəsizliyinin təmin olunmasına verilən töhfələr bunun bariz nümunəsidir.

Samir Şərifov qeyd edib ki, bu gün Azərbaycan-ABŞ münasibətləri yüksələn dinamika ilə inkişaf edir. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Prezident İlham Əliyevin ötən ilin avqustunda ABŞ-yə səfəri ikitərəfli münasibətlərdə yeni mərhələnin əsasını qoyub.

Baş nazirin müavini bildirib ki, həmin səfər çərçivəsində ABŞ Prezidenti Donald Trampın Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasına, Zəngəzur dəhlizinin açılmasını və fəaliyyətini təmin edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun yaradılması barədə sazişin imzalanmasına göstərdiyi dəstək və vasitəçilik səyləri Azərbaycan tərəfindən yüksək qiymətləndirilir.

Qeyd olunub ki, ikitərəfli münasibətlərdə formalaşmış müsbət dinamikanın davamı olaraq Azərbaycan və ABŞ liderlərinin sonrakı görüşləri, eləcə də ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin cari ilin fevralında Azərbaycana səfəri ölkələr arasında yüksəksəviyyəli dialoqun intensivliyini bir daha nümayiş etdirib.

Baş nazirin müavini Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasını Azərbaycan-ABŞ münasibətlərinin inkişafında tarixi mərhələ kimi qiymətləndirərək bildirib ki, bu sənəd iqtisadi əməkdaşlığın institusional mexanizmlərinin genişlənməsini dəstəkləyir. Xartiya ikitərəfli iqtisadi və ticarət əlaqələrinin, investisiya əməkdaşlığının dərinləşdirilməsinə əlavə təkan verəcək.

Samir Şərifov əminliyini ifadə edib ki, Prezident İlham Əliyev və Prezident Donald Tramp arasında qarşılıqlı etimada əsaslanan ünsiyyət Azərbaycan-ABŞ tərəfdaşlığının dayanıqlığını təmin edəcək, iqtisadi və investisiya əməkdaşlığının genişlənməsinə, eləcə də qarşılıqlı maraq doğuran bütün istiqamətlər üzrə birgə fəaliyyətin dərinləşməsinə mühüm töhfə verəcək.

## "Mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 204** **Bakı şəhəri, 30 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 aprel tarixli 654 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nın və "Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli 192 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 203** **Bakı şəhəri, 30 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 855 (Cild I); 2024, № 1, maddə 75) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 16-cı hissənin "İxtisaslar" sütununda "malları" sözü "məhsulları" sözü ilə əvəz edilsin.
2. 120-ci hissənin "İxtisaslar" sütununda "Dəmiryolu" sözü "Dəmiryol" sözü ilə, "keçidinin" sözü "keçidi" sözü ilə əvəz edilsin.
3. 121-ci hissənin "İxtisaslar" sütununda "Dəmiryolu" sözü "Dəmiryol" sözü ilə əvəz edilsin.
4. 151-ci hissənin "İxtisaslar" sütununda "Kostyum ustası və dərzi" sözləri "Səhnə kostyumları üzrə dərzi" sözləri ilə əvəz edilsin.
5. Aşağıdakı məzmunda 169-193-cü hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 169. | 3D rəqəmsal oyun dizayneri | 1 860 |
| 170. | Alternativ enerji qurğu və avadanlıqlarının istismarı | 2 470 |
| 171. | Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları üzrə operator | 1 280 |
| 172. | Bədii tikmə ustası | 1 930 |
| 173. | Daş memarlıq abidələrinin bərpaçısı | 1 650 |
| 174. | Dronların texniki xidməti və təmiri üzrə texnik | 2 390 |
| 175. | Elektrik sayğacları texniki | 2 580 |
| 176. | Elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik | 2 710 |
| 177. | Günəş panelləri quraşdırıcısı və təmirçisi | 2 580 |
| 178. | İstehsalata rəqəmsal nəzarət sistemləri | 2 180 |
| 179. | Kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis | 1 340 |
| 180. | Mexatronika | 2 710 |
| 181. | Musiqi alətlərinin ustası | 2 336 |
| 182. | Qida və içki üzrə nəzarətçi | 2 210 |
| 183. | Rəqəmsal inşaat üzrə mütəxəssis | 1 880 |
| 184. | Rəqəmsal məzmun idarəçiliyi | 1 860 |
| 185. | Satış və marketinq | 1 360 |
| 186. | Suvarma maşınları və nasos qurğuları maşinisti | 2 388 |
| 187. | Tədbirlərin planlaşdırılması və təşkili | 1 590 |
| 188. | Yeraltı qaz kəmərlərinin təmiri və istismarı üzrə çilingər | 2 570 |
| 189. | Kompüter sistem inzibatçısı | 1 440 |
| 190. | Geodeziya və kartoqrafiya | 1 650 |
| 191. | Satınalmaların təşkili | 1 340 |
| 192. | Qida emalı texnologiyaları | 2 210 |
| 193. | Bitki mühafizəsi və fumiqasiya işləri üzrə texnik | 2 200 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türkiyənin Milli Müdafiə Universitetinin nümayəndə heyəti ölkəmizdə səfərdədir

**Türkiyənin Milli Müdafiə Universitetinin rektor müavini general-mayor Burhan Aktaşın rəhbərliyi ilə qardaş ölkənin Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri institutlarının rəhbər və professor-müəllim heyəti, eləcə də həmin təhsil müəssisələrində keçirilən "Qərargahın idarəolunması kursu"nun dinləyiciləri ölkəmizdə səfərdədir.**



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə qonaqlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət edib, gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Səfərin planına uyğun olaraq nümayəndə heyəti ilə görüşən Azərbaycanın müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik prinsiplərinə əsaslanan münasibətlərin hərbi təhsilin inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Bildirilib ki, Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi hərbi qulluqçuların peşəkar bilik və bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət daşıyır.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən general-mayor Burhan Aktaş qarşılıqlı etimad və dostluğa söykənən münasibətlərin inkişaf etdirilməsində bu cür səfərlərin və keçirilən görüşlərin vacibliyini qeyd edib.

Görüşdə hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər və perspektiv planlar müzakirə olunub.

Tərəflər həmçinin peşəkar kadrların hazırlanması məqsədilə birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

# İrakli KOBAXİDZE: "Cənubi Qafqazın strateji əhəmiyyəti həm regional, həm də qlobal baxımdan artıb"

**"Onilliklərdir ki, Gürcüstan ABŞ-nin sadiq, etibarlı və məsuliyyətli tərəfdaşıdır. Rəsmi Tbilisi regional təhlükəsizlik məsələləri üzrə ABŞ ilə ardıcıl əməkdaşlıq edib".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze ABŞ səfirliyində Amerikanın Müstəqillik Gününə həsr olunmuş qəbulda çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Amerika Birləşmiş Ştatlarına strateji prioritetlərini həyata keçirmək üçün Gürcüstanla əməkdaşlıq etmək lazım gəldikdə, Gürcüstan sadiq tərəfdaş kimi güclü dəstək ilə cavab verib və bundan sonra da verəcək.

İrakli Kobaxidze deyib: "Son hadisələr Cənubi Qafqazın strateji əhəmiyyətinin həm regional, həm də qlobal kontekstdə artdığını göstərir. Bu, unikal coğrafi mövqe, iqtisadi əhəmiyyət və geosiyasi amillərin kombinasiyası ilə əlaqədardır".



Onun sözlərinə görə, fundamental geosiyasi dəyişikliklər kontekstində Gürcüstan tərəfdaşlığın gücləndirilməsinin və rəsmiləşdirilməsinin hər iki ölkənin ortaq maraqlarına xidmət etdiyinə inanır.

# Azərbaycan Milli Xalça Muzeyində "Bir mədəniyyət xəzinəsi: Divanü lüğat-it-türk" sərgisi açılıb









**Azərbaycan Milli Xalça Muzeyində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan "Türk Dünyası Həftəsi" çərçivəsində "Bir mədəniyyət xəzinəsi: Divanü lüğat-it-türk" sərgisinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Alyona Əliyeva tədbirdə iştirak edib.

Mərasimdə çıxış edən Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bildirib ki, sərgi Azərbaycanın Mədəniyyət Nazirliyi, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Milli Təhsil Nazirliyi, Yunus Əmrə İnstitutu, Olğunlaşma İnstitutları və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə ərsəyə gəlib.

Direktor qeyd edib ki, bu sərgi dili, tarixi, sənəti və təhsili bir araya gətirərək, minillik mədəni irsin müasir nəsillərə çatdırılmasına xidmət edir. "Ekspozisiya ziyarətçilərə "Divanü lüğat-it-türk"ün daşıdığı zəngin mənəvi və mədəni dəyərlərə yeni baxış bucağından yanaşmaq, sözün min ildən artıq bir dövrdə dəyərə, dəyərin əmələ, əməlin isə mədəni davamlılığa çevrilməsi prosesini izləmək imkanı yaradır. Türkiyə Milli Təhsil Nazirliyinin Həyatboyu Öyrənmə Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Olğunlaşma İnstitutları tərəfindən hazırlanan sərgi türk mədəniyyətinin ən mühüm yazılı irs nümunələrindən biri



hesab olunan "Divanü lüğat-it-türk" əsərinin müasir bədii interpretasiyasını təqdim edir", - deyə Ə.Məlikova vurğulayıb.

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov sərginin türk dilinin tarixi inkişafını və zənginliyini nümayiş etdirən əlamətdar mədəni hadisə olduğunu bildirərək deyib: "Dil daim inkişaf edən canlı sistemdir və Azərbaycan dili də müasir türk dilləri ilə qarşılıqlı əlaqə nəticəsində zənginləşməkdə davam edir. "Divanü lüğat-it-türk" türk dillərinin zənginliyini əks etdirən ən qiymətli mənbələrdən biridir".

Yunus Əmrə İnstitutunun Azərbaycan üzrə koordinatoru Gökhan Seyhan vurğulayıb ki, sərgi ortaq türk mədəni irsinin nümayişi baxımından mühüm əhəmiyyət daşıyır. O, tədbirin məhz Milli Xalça Muzeyində keçirilməsini xüsusi dəyər kimi qiymətləndirib.

Türk Dil Qurumunun keçmiş sədri professor Şükrü Haluk Akalın diqqətə çatdırıb ki, ekspozisiyada nümayiş etdirilən əsərlər "Divanü lüğat-it-türk"də yer alan sözlərdən, anlayışlardan, atalar sözlərindən və zəngin mədəni irsdən ilhamlanaraq hazırlanıb.

"Toxuculuq, tikmə, keramika, ağac və metal işləmə sənətlərinə aid nümunələr Qaraxanlılar dövrünün memarlıq motivləri əsasında müasir bədii üslubda yenidən işlənib. Sərgidə həmçinin yazı mədəniyyətini əks etdirən mürəkkəb qabları, kitab cildləri, eləcə də miniatür sənəti vasitəsilə canlandırılmış uşaq oyunları, toy mərasimləri, döyüş və ziyafət səhnələri nümayiş etdirilir. Bu eksponatlar türk xalqlarının tarixi-mədəni yaddaşını, ortaq dəyərlərini və sosial həyatını bədii ifadə vasitələri ilə ziyarətçilərə çatdırır", - deyə Şükrü Haluk Akalın əlavə edib.

Türkiyə Respublikası Milli Təhsil Nazirliyinin Həyatboyu Öyrənmə Baş İdarəsinin layihə üzrə mütəxəssisi Dilay Nakış Azərbaycanda keçirilən bu layihədə iştirak etməkdən qürur duyduqlarını bildirib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu "Divanü lüğat-it-türk"ün türk dünyasının ortaq dil və mədəniyyət xəzinəsi olduğunu vurğulayıb.

Tədbir bədii hissə ilə davam edib. Azərbaycan Milli Konservatoriyasının aşıqlar dəstəsi musiqi nömrəsi ilə çıxış edib.

Daha sonra qonaqlar sərgi ilə tanış olublar.

Sərgi iyulun 13-dək davam edəcək.

# Leyla Əliyeva Şəki şəhərindəki Məhəmməd Füzuli adına parkda görülən işlərlə tanış olub





**İyunun 30-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Şəki şəhər Məhəmməd Füzuli adına mədəniyyət və istirahət parkında olub.**

AZƏRTAC xəbər verir ki, burada Leyla Əliyevaya ərazidə görüləcək bərpa və yenidənqurma işləri barədə məlumat verilib.

Bildirilib ki, 1951-ci ildə salınan parkda bir sıra əsaslı bərpa və yenidənqurma işlərinin aparılması nəzərdə tutulur.

Qeyd olunub ki, parkın ərazisində vaxtilə şəhər sakinlərinin və qonaqların ən sevimli istirahət yeri olan, musiqi və teatr kollektivlərinin, tanınmış mədəniyyət və incəsənət xadimlərinin vaxtaşırı çıxış etdiyi "Yay teatrı" da fəaliyyət göstərib. Diqqətə çatdırılıb ki, 1800 nəfərlik tamaşaçı yeri olan "Yay teatrı"nda 1975-1980-ci illərdə Azərbaycanın görkəmli estrada və opera müğənnisi Rəşid Behbudovun, Xalq artisti Zeynəb Xanlarovanın, dirijor və bəstəkar Niyazinin rəhbərliyi ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışları olub, 1981-ci ildə Nəsibə Zeynalova və Hacıbaba Bağırovun iştirakı ilə teatr kollektivlərinin tamaşaları nümayiş etdirilib. Həmçinin 1982-1995-ci illərdə burada tanınmış xanəndə və müğənnilər Əlibaba Məmmədov, Məhəbbət Kazımov, Məmmədbağır Bağırzadə, Mələkxanım Əyyubova, Nisə Qasımova, Səxavət Məmmədov, Zaur Rzayev və digərlərinin konsertləri keçirilib.

Park ərazisində aparılan təmir işləri çərçivəsində Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin büstü parkdan götürülərək bərpa olunub və yenidən həmin istirahət məkanına qoyulub.

Qeyd olunub ki, bərpa işləri zamanı əsas hədəf freskaları, yerli heykəltaraşların əsərlərini, teatrı bərpa etmək, tamaşaçıları bura yenidən qaytarmaq, parkı ailə istirahət məkanına çevirməkdir.

# Leyla Əliyeva Şəkidə Uşaq evi sosial xidmət müəssisəsinin sakinləri ilə görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyunun 30-da Şəkidə 6 saylı Uşaq evi sosial xidmət müəssisəsində olub.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva müəssisədəki uşaqların iştirakı ilə nümayiş etdirilən bədii proqramı izləyib. Həmçinin uşaqlara hədiyyələr təqdim edilib, onlarla şəkillər çəkdirilib.

Qeyd edək ki, 1936-cı ildən 2 nömrəli Uşaq evi kimi fəaliyyətə başlayan müəssisə 1988-ci ildən Şəki Qarışıq Tipli Uşaq Evi adı ilə fəaliyyətini davam etdirib. 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə müəssisənin yeni inşa olunan binası istifadəyə verilib.

Müəssisədə valideyn himayəsindən məhrum olmuş uşaqlar yaşayırlar.

Burada uşaqlara sosial uyğunlaşmanın təmin olunması üçün sosial reabilitasiya tədbirləri həyata keçirilir, asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif xidmətlər göstərilir. Müəssisədəki uşaqlar sosial-məişət, sosial-psixoloji, tibbi-sosial, sosial-pedaqoji və sosial-hüquqi xidmətlər ilə təmin olunurlar.









# Leyla Əliyeva Şəki Şəhər İncəsənət Məktəbində olub



**İyunun 30-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Şəki şəhərində İncəsənət Məktəbinin yeni istifadəyə verilən binası ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya İncəsənət Məktəbi barədə ətraflı məlumat verilib.

Bildirilib ki, 1938-ci ildə tikilən bina ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binası inşa edilib.

İki korpusdan ibarət təhsil müəssisəsi 430 şagird yerlikdir. Məktəb zəruri mebel və avadanlıqlar, həmçinin əyani vəsaitlərlə təchiz edilib.

Burada musiqi, nəzəriyyə, xor, fotoqrafiya, rəssamlıq, heykəltaraşlıq, dizayn otaqları, xoreoqrafiya və akt zalları, kitabxana, yeməkxana müəllim və uşaqların istifadəsinə verilib. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.





# Leyla Əliyeva "Onlardan biri: Emil" adlı anım tədbirində iştirak edib










**İyunun 30-da Şəki Dövlət Dram Teatrında talassemiya xəstəliyindən dünyasını dəyişmiş 13 yaşlı Emilin xatirəsinə həsr olunmuş "Onlardan biri: Emil" adlı anım tədbiri keçirilib.**

Tədbir Şəki Şəhər İcra Hakimiyyətinin təşkilati dəstəyi, "Ürəkdən Qana" layihəsinin rəhbəri Ayşən Abdullayevanın təşəbbüsü və layihənin ümumi rəhbəri Elvin Nüsrətoğlunun rəhbərliyi ilə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Tədbirin əsas məqsədi talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara və bu xəstəlik səbəbindən həyatını itirmiş övladların əziz xatirəsinə ehtiramın ifadə olunması, eyni zamanda cəmiyyətin diqqətini talassemiya probleminə yönəltmək olub.

Anım gecəsində Emilin həyat yolunu, duyğularını, arzularını və ailəsinin yaşadığı hissləri əks etdirən müxtəlif bədii kompozisiyalar nümayiş etdirilib. Səhnədə təqdim olunan "Pərvanə", "Kamin", "Adagio", "Mən səni axtararam", "Luna" və bağlanışda səsləndirilən "Sob a Sol" ("Günəşin altında") kompozisiyaları tamaşaçılar tərəfindən böyük duyğu ilə qarşılanıb. Təqdim olunan səhnə nömrələri həyatın, ümidin, sevginin və yaşamağın dəyərini özündə əks etdirib.

Tədbir çərçivəsində Emilin həyatından bəhs edən, onun xatirələrini yaşadan xüsusi hazırlanmış süjetlər, o cümlədən "Onlardan biri: Emil" layihəsi çərçivəsində keçirilən tədbirlərə dair videoçarxlar nümayiş olunub.

Tədbirin sonunda çıxış edən "Ürəkdən Qana" layihəsinin rəhbəri və "Onlardan biri: Emil" layihəsinin təşəbbüskarı Ayşən Abdullayeva ölkəmizdə talassemiyalı xəstələrə göstərilən diqqətdən bəhs edib, dəstəyə görə ölkə rəhbərliyinə təşəkkürünü bildirib. Bildirilib ki, talassemiya ilə yaşayan insanlar hər gün böyük mübarizə aparırlar. Onların həyata ümidini artıran ən qiymətli kömək isə dövlətlə yanaşı, cəmiyyətin diqqəti, qayğısı və könüllü qan donorlarının fədakarlığıdır. O qeyd edib ki, bu kimi layihələr yalnız anım xarakteri daşımır, eyni zamanda talassemiya xəstələri və onların ailələrinə mənəvi dəstək göstərmək, cəmiyyətdə həmrəylik və sosial məsuliyyət hissini gücləndirmək məqsədi daşıyır.

Qeyd edək ki, "Onlardan biri: Emil" layihəsi talassemiya mövzusuna həsr olunmuş silsilə tədbirlərin yekun mərhələsi olub. Layihə iyunun 18-də keçirilən "Talassemiya - Cəmiyyətə bir mesaj" adlı konfransla start götürüb. Konfrans çərçivəsində talassemiya xəstəliyi, onun fəsadları, profilaktikası və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib.

Layihənin növbəti mərhələsi olaraq iyunun 19-20-də "Talassemiya - Qan Birliyi" adlı qanvermə aksiyası təşkil olunub. Aksiyada ümumilikdə 465 nəfər iştirak edib. Tibbi müayinələrdən sonra 163 nəfər donor olaraq qan verib. Toplanan qan ehtiyatı talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsinə dəstək məqsədilə istifadəyə yönləndirilib.

Layihə çərçivəsində həyata keçirilən bütün tədbirlər cəmiyyətin diqqətini talassemiya probleminə yönəltmək, könüllü qan donorluğunu təşviq etmək və xəstəlikdən əziyyət çəkən insanlara dəstək olmaq məqsədinə xidmət edib.

Tədbirdən sonra Emilin ailə üzvlərinə baş çəkən Leyla Əliyeva onlarla çay süfrəsi ətrafında səmimi söhbət edib.

# Leyla Əliyeva "Azəripək" ASC-nin fəaliyyəti ilə yaxından tanış olub

**İyunun 30-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Azərbaycanın ən qədim sənaye müəssisələrindən və milli ipəkçilik irsinin əsas simvollarından biri olan "Azəripək" ASC-də olub.**





AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya müəssisənin fəaliyyəti barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə milli-mədəni irsin qorunması, ənənəvi sənətkarlığın inkişafı, qeyri-neft sənayesinin gücləndirilməsi və "Made in Azerbaijan" brendinin beynəlxalq səviyyədə təşviqi istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasəti çərçivəsində "Azəripək" ASC xüsusi strateji əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən müəssisə bir əsrdən artıq tarixə malik olmaqla, bu gün də ölkədə təbii ipək istehsalını həyata keçirən yeganə ipək kombinatıdır.

"Azəripək" ASC yalnız istehsal müəssisəsi deyil, həm də Azərbaycanın zəngin ipəkçilik ənənələrinin, milli sənətkarlığının və mədəni irsinin qorunaraq gələcək nəsillərə ötürülməsində mühüm missiya yerinə yetirən strateji sənaye kompleksidir. Müəssisə ekoloji cəhətdən təmiz, tam təbii xammala əsaslanan istehsal prinsiplərinə sadiq qalaraq "yaşıl iqtisadiyyat"ın inkişafına töhfə verir və Azərbaycan ipəyini dünya bazarlarında layiqincə təmsil edir.

Qeyd olunub ki, "Azəripək" ASC-nin fəaliyyəti sayəsində Azərbaycanın 40-dan çox rayonunda minlərlə kümçü və fermer baramaçılıqla məşğul olur, müəssisənin özündə isə 400-dən artıq əməkdaş çalışır. Müəssisə regionlarda məşğulluğun artırılmasına, kənd təsərrüfatının inkişafına və ipəkçilik sahəsində dayanıqlı dəyər zəncirinin formalaşdırılmasına mühüm töhfə verir.

Səfər çərçivəsində Leyla Əliyeva müəssisənin barama emalı sexinə, toxuculuq sexinə və Azərbaycanın UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş milli kəlağayı sənətinin yaşadıldığı emalatxanaya baş çəkib. O, təbii Azərbaycan ipəyinin istehsalının bütün mərhələləri, qədim sənətkarlıq ənənələrinin müasir texnologiyalarla qorunaraq inkişaf etdirilməsi prosesi ilə yaxından tanış olub.

Leyla Əliyeva müəssisənin əməkdaşları ilə səmimi söhbət edib, onların peşəkarlığını və milli ipəkçilik ənənələrinin qorunması istiqamətində gördükləri işi yüksək qiymətləndirib, kollektivlə xatirə şəkilləri çəkdirib.

Sonda Leyla Əliyevaya kəlağayı hədiyyə olunub.

Bu ziyarət Azərbaycanın milli irsinə, ipəkçilik sənayesinə və yüzillik ənənələrə malik "Azəripək" ASC-nin fəaliyyətinə göstərilən yüksək diqqət və ehtiramın növbəti təzahürü olmaqla yanaşı, ölkəmizdə milli istehsalın, ekoloji cəhətdən təmiz məhsulların və ənənəvi sənətkarlığın inkişafına verilən önəmin bariz nümunəsi kimi qiymətləndirilir.

# Yüksək etimad nümunəsi

## Bakı beynəlxalq tədbirlərin keçirildiyi əsas mərkəzlərdən biridir



**Strateji coğrafi mövqeyi, uğurlu xarici siyasəti və dinamik iqtisadi inkişafı ilə seçilən Azərbaycan qlobal miqyaslı mötəbər tədbirlərin, iqtisadi və siyasi forumların etibarlı məkanlarından birinə çevrilib. Ölkəmizin qlobal dialoq mərkəzi kimi formalaşan bu imici təkcə diplomatik uğur deyil, həm də dünya birliyinin Azərbaycana olan yüksək etimadının göstəricisidir.**

Təsadüfi deyil ki, 2026-cı ilin may ayından etibarən paytaxtımız bir-birinin ardınca dünya əhəmiyyətli tədbirlərə, humanitar, siyasi və maliyyə forumlarına evsahibliyi etməklə qlobal gündəmi müəyyənləşdirən əsas mərkəz rolunu oynayır. Dünya birliyi və aparıcı beynəlxalq təşkilatlar Azərbaycana qlobal çağırışların müzakirə edildiyi, mühüm qərarların qəbul olunduğu strateji məkan və sabitlik adası olan bir siyasi mərkəz kimi yanaşırlar.

İyulun 1-də Bakıda Azərbaycanın sədrliyi ilə Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı öz işinə başlayıb. Tədbir çərçivəsində xarici investorlar və bank rəhbərliyi ilə keçirilən görüşlər Azərbaycanın Orta dəhliz layihəsindəki mərkəzi logistik rolunu gücləndirməklə yanaşı, ölkəmizin qeyri-neft sektorunun və özəl sahibkarlığın şaxələndirilməsinə yeni maliyyə dəstəyi qazandırır.

Ötən ay ərzində də beynəlxalq maliyyə qurumlarının diqqəti ölkəmizə yönəlmişdi. İyunun əvvəlində başlayan "Bakı Enerji Həftəsi" və onun çərçivəsində keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ölkəmizin qlobal enerji təhlükəsizliyinin və Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfələrin növbəti nümayişi oldu.

İyunun 16-dan 19-dək Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında İslam İnkişaf Bankı (İİB) Qrupunun 2026-cı il İllik Toplantıları da Bakıda keçirildi. Dünyanın müxtəlif ölkələrindən yüksəksəviyyəli dövlət rəsmilərini, maliyyə nazirlərini və nüfuzlu investorları bir araya gətirən bu maliyyə forumunun regionun iqtisadi gələcəyinin formalaşdırılması baxımından böyük əhəmiyyəti var. Müzakirələr çərçivəsində rəqəmsal transformasiya, dayanıqlı infrastrukturun qurulması və islam dünyasının aparıcı investorları ilə yerli sahibkarlar arasında yeni tərəfdaşlıq əlaqələrinin qurulması istiqamətində mühüm addımlar atıldı.

İqtisadi arenadakı uğurların ardınca Azərbaycan özünün parlament diplomatiyası imkanları sayəsində dialoq arealını daha da genişləndirdi. İyunun 22-25-də Milli Məclisin evsahibliyi ilə Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının (İƏT Pİ) 20-ci Sessiyası keçirildi. İslam dünyasının qanunverici orqanlarının rəhbərlərini və nümayəndə heyətlərini bir araya gətirən bu mötəbər sessiya parlamentlərarası əlaqələrin gücləndirilməsi, islamofobiya ilə mübarizə, humanitar böhranların həlli və regional təhlükəsizlik məsələlərinin koordinasiyası baxımından mühüm platformadır. Bakı sessiyası vasitəsilə Azərbaycan regionda yaranmış yeni geosiyasi reallıqları və özünün ədalətli sülh gündəliyini dost və tərəfdaş ölkələrin qanunvericilərinə birbaşa çatdırmaq imkanı qazandı. Eyni zamanda parlament diplomatiyasının verdiyi imkanlardan istifadə edərək çoxtərəfli əlaqələrini yeni müstəviyə qaldırdı.

Maliyyə və iqtisadi forumların önəmli məqamlarından biri də Azərbaycanın cəlbedici və dinamik investisiya mühitinin xarici işgüzar dairələrə birbaşa təqdim olunmasıdır. İstər İslam İnkişaf Bankının, istərsə də Qara Dəniz Ticarət və İnkişaf Bankının toplantılarında qeyd olunduğu kimi, xarici investorlar üçün yaradılan hüquqi təminat, əlverişli biznes mühiti və makroiqtisadi sabitlik beynəlxalq kapitalın ölkəmizə axınını sürətləndirir. Ələt Azad İqtisadi Zonası, sənaye məhəllələri və xüsusilə işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan genişmiqyaslı vergi, gömrük və investisiya təşviqi imtiyazları Azərbaycanı xarici investorlar üçün cazibə mərkəzinə çevirir.

Nəticə etibarilə WUF13-dən başlayaraq İslam İnkişaf Bankının toplantılarına, Parlament İttifaqının sessiyasına və nəhayət, Qara Dəniz Ticarət və İnkişaf Bankının forumuna qədər uzanan bu yol Azərbaycanın qlobal iqtisadiyyatda, regional nəqliyyat dəhlizlərində və beynəlxalq siyasətdə strateji çəkisini aydın nümayiş etdirir. Bütün bu faktlar onu göstərir ki, Azərbaycan təkcə beynəlxalq tədbirlərin iştirakçısı deyil, həm də qlobal miqyasda iqtisadi, siyasi və humanitar dialoqun əsas təşəbbüskarı və hərəkətverici qüvvəsidir. Bakıda qəbul edilən qərarlar, imzalanan müqavilələr və formalaşan yeni tərəfdaşlıqlar ölkəmizin beynəlxalq nüfuzunu möhkəmləndirməklə yanaşı, həm də xarici investisiyaların qeyri-neft sektoruna cəlb olunmasını stimullaşdıraraq bütövlükdə geniş coğrafi regionun dayanıqlı inkişafına və təhlükəsizliyinə xidmət edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Sənayeləşmə prosesi regionlara keçir

**Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlər davam edir. Vaxtaşırı mühüm layihələr icra olunur, xüsusilə də sənayenin inkişafına böyük diqqət yetirilir. Bu da təsadüfi deyil. Çünki sənaye iqtisadiyyatın aparıcı sahələrindəndir. Uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq yüzlərlə müasir müəssisə yaradılıb. Bütün bunların nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb.**



Sənaye sektorunda əldə olunan uğurlar ölkənin iqtisadi göstəricilərində də öz əksini tapıb. Həyata keçirilən islahatlar, sənaye zonaları və istehsal müəssisələri sənaye məhsullarının həcminin artmasına, yeni iş yerlərinin açılmasına və neftdənkənar sahənin genişlənməsinə, sözün geniş mənasında, təsir göstərib. İnkişaf dinamikasını daha aydın görmək üçün ən son statistik göstəricilərə nəzər salaq: "2026-cı ilin yanvar-may aylarında sənaye müəssisələri və həmin sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 27,5 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Məhsul istehsalı qeyri-neft-qaz sektorunda 5,8 faiz artıb. 5 aylıq göstəricilərdə sənayedə neftdənkənar sahənin payı 80,1 faizə çatıb.

Bu uğurların əldə olunmasında sənaye parkları və sənaye məhəllələri mühüm rol oynayır. Sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması, müasir infrastrukturun qurulması və dövlət dəstəyinin gücləndirilməsi yeni istehsal sahələrinin formalaşmasına, investisiyaların cəlb edilməsinə və regionlarda məşğulluğun artmasına şərait yaradır.

Prezident İlham Əliyevin sənayeləşmə siyasəti ilə bağlı qarşıya qoyduğu mühüm vəzifələrdən biri ölkəmizdə sənayenin regional strukturunun təkmilləşdirilməsi və bir neçə rayonda sənaye məhəllələrinin yaradılmasıdır. Ölkədə innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin, həmçinin neftdənkənar sahənin davamlı inkişafını təmin etmək, əhalinin məşğulluğunu artırmaq məqsədilə sənaye parkları və məhəllələri fəaliyyət göstərir. Azərbaycanda regional sənaye quruculuğu bölgələri təkcə aqrar əsasda deyil, həm də sənaye əsasında inkişaf edir. Neftçala, Masallı və Sabirabaddakı sənaye məhəllələri 10 ilə yaxındır sahibkarların istifadəsindədir. Sənaye məhəllələrində fəaliyyət göstərən müəssisələrin sayının və onların istehsal etdikləri məhsulların çeşidlərinin artması dövlətin bu istiqamətdəki uğurlu siyasətindən xəbər verir. Çünki buraya əsas vəsaiti qoyan dövlətdir. Həm yerin seçilməsi, həm də bütün infrastrukturun, kommunikasiyaların yaradılması, sənaye və ofis binalarının tikintisi dövlət vəsaiti hesabınadır.

İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) Azərbaycanda sənayeləşmə siyasətinin əsas icra mexanizmlərindən biridir. İdarəçiliyində 9 sənaye parkı, 3 sənaye məhəlləsi, Yevlax pilot aqroparkı və Peşə Təhsil Mərkəzi fəaliyyət göstərir. İqtisadi zonaların müxtəlif növləri arasında sənaye məhəllələri özünəməxsus yer tutur. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın inkişafına yönələn bu model istehsal fəaliyyətinin genişlənməsinə, yeni biznes təşəbbüslərinin formalaşmasına və yerli iqtisadi potensialın səmərəli istifadəsinə xidmət edir.

Sənaye məhəllələri kiçik və orta sahibkarlığın inkişafı üçün yaradılmış xüsusi istehsal zonalarıdır. Məhəllələrdə sahibkarlara hazır infrastruktur, kommunikasiya xətləri, istehsal sahələri, logistika imkanları və dövlət tərəfindən dəstək mexanizmləri təqdim olunur. Belə əlverişli şərait yeni istehsal müəssisələrinin yaranmasına və biznes fəaliyyətinin daha sürətli inkişafına şərait yaradır.

Modelin əsas məqsədi regionlarda istehsalın genişləndirilməsi, kiçik sahibkarlığın sənaye sektoruna inteqrasiyası, yeni iş yerlərinin yaradılması və ölkənin idxaldan asılılığının azaldılmasıdır. Bununla yanaşı, sənaye məhəllələri regionların iqtisadi potensialının gücləndirilməsinə və yerli resursların daha səmərəli istifadəsinə xidmət edir. Hazırda Azərbaycanda fəaliyyət göstərən sənaye məhəllələri bölgələrdə sahibkarlıq fəaliyyətinin genişlənməsində mühüm rol oynayır və xüsusilə qida və kənd təsərrüfatı məhsullarının emalı, yüngül sənaye, mebel istehsalı və tikinti materiallarının hazırlanması kimi sahələrdə aktiv fəaliyyət göstərir.

Neftçala Sənaye Məhəlləsində hazırda 6 rezident fəaliyyət göstərir. Məhəllə üzrə indiyədək 63,05 milyon manatlıq investisiya portfeli formalaşdırılıb, nəticədə 129 daimi iş yeri yaradılıb. İZİA-nın məlumatına görə, rezidentlər tərəfindən bu günədək 216,8 milyon manat dəyərində məhsul satışı həyata keçirilib, istehsal olunan məhsulların ixracı isə 2,2 milyon manat təşkil edib. Bu göstəricilər Neftçala Sənaye Məhəlləsinin regionda istehsalın genişlənməsi, məşğulluğun artırılması və neftənkənar sahənin inkişafına verdiyi töhfəni aydın şəkildə nümayiş etdirir.

Bütün bunlar onu deməyə əsas verir ki, sənaye məhəllələri müasir iqtisadi inkişafın tərkib hissələrindəndir və ölkənin sənaye potensialının artırılmasında xüsusi rol oynayır. Bu məhəllələr əsasən kiçik və orta sahibkarlığın inkişafına şərait yaratmaq, istehsal fəaliyyətini mərkəzləşdirmək və investisiya cəlb etmək məqsədilə yaradılır. Sənaye məhəllələri infrastrukturun hazır şəkildə təqdim edilməsi, kommunal xidmətlərə çıxışın asanlaşdırılması və biznes mühitinin sadələşdirilməsi baxımından sahibkarlara böyük üstünlüklər verir. Nəticə etibarilə bu cür ərazilər həm iqtisadi şaxələndirməyə, həm də regional inkişafın sürətlənməsinə töhfə verir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# 2 İYUL AZƏRBAYCAN POLİSİ GÜNÜDÜR

## Dövlətə və xalqa xidmətin şərəfli salnaməsi

**Ölkəmizdə asayişi və ictimai təhlükəsizliyi yüksək səviyyədə təmin edən Azərbaycan polisi bu gün öz zəngin və şərəfli fəaliyyətinin 108-ci ildönümünü qeyd edir. Milli polis təsisatının bünövrəsi Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub. 1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən gənc respublikamızın daxili təhlükəsizliyini təmin etmək, ictimai asayişi qorumaq və dövlət quruculuğuna yönəlik təhdidlərin qarşısını almaq məqsədilə həmin il iyulun 2-də Daxili İşlər Nazirliyi tərkibində milli polis orqanları təsis edilib.**



Tarixi ardıcıllığın və varislik ənənəsinin bərpası olaraq, Ümummilli Lider Heydər Əliyevin 24 may 1998-ci ildə imzaladığı "Azərbaycan polisi gününün təsis edilməsi haqqında" fərmana əsasən, həmin şərəfli tarix - 2 İyul günü Azərbaycan Polisi Günü kimi qeyd olunur.

Cümhuriyyət dövründə daxili işlər orqanları son dərəcə mürəkkəb siyasi-ictimai şəraitdə fəaliyyət göstərib. Milli maraqların müdafiəsində, gənc dövlətin sərhədlərinin qorunmasında ön sıralarda addımlayan polisimiz ölkədə anarxiya meyillərinin qarşısını alıb, qanunçuluğun bərqərar olunmasında və dövlət təsisatlarının təhlükəsizliyinin təmin edilməsində önəmli missiyanı icra edib. 1920-ci il aprelin 27-də cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il ərzində daxili işlər orqanları ictimai asayişi qorumaq fəaliyyətini dayandırmayıb, cinayətkarlığa qarşı qətiyyətli mübarizə apararaq böyük inkişaf yolu keçib, zəngin təcrübə qazanıb. Bəşəriyyəti təhdid edən faşizmə qarşı müharibədə daxili işlər sisteminin 800-ə yaxın əməkdaşı ön cəbhədə rəşadətlə vuruşub, göstərdikləri igidliyə görə müxtəlif dövlət mükafatları və ordenlərlə təltif olunublar.

Azərbaycanda daxili işlər orqanlarının möhkəm nizam-intizama, yüksək peşəkarlığa malik mərkəzləşdirilmiş hüquq-mühafizə strukturu kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin birinci dəfə respublikamıza rəhbərlik etdiyi 1970-1980-ci illərdə Daxili İşlər Nazirliyi və ona bağlı orqanlar öz yüksək peşəkarlığı ilə fərqlənib. Heydər Əliyevin rəhbərliyi dövründə daxili işlər orqanlarının təşkilati cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması və peşəkar kadrların irəli çəkilməsi ilə bağlı mühüm tarixi qərarlar qəbul olunub. Milisin yerli mütəxəssislərlə komplektləşdirilməsi məqsədilə xüsusi milliləşdirmə xətti yürüdülüb. Bakı Milis Məktəbinin tədris və infrastruktur bazası əsaslı şəkildə yenilənib.

Heydər Əliyev daxili işlər orqanları əməkdaşlarının vətənpərvərlik ruhunda təlim-tərbiyəsinə və peşəkarlığının artırılmasına xüsusi önəm verirdi. Məhz şəxsi heyətin vətənpərvər ruhda formalaşmasının nəticəsi idi ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayanda torpaqlarımızın müdafiəsinə qalxan ilk nizami qüvvə milis dəstələri oldu. Həmin vaxt respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə 1700-ə yaxın polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 polis əməkdaşı Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 polis əməkdaşı orden və medallara layiq görüldü.

Müstəqilliyimizin bərpasının ilk illərində respublikada iqtidarda olan qüvvələrin səbatsızlığı cinayətkarlığı da pik həddə çatdırmışdı. Gənc dövləti uçurumun kənarına gətirən AXC-Müsavat cütlüyünün idarəetmədəki kobud səhvləri nəticəsində güc strukturlarının, o cümlədən polisin fəaliyyəti iflic olmuşdu. Ölkədə hərc-mərclik dözülməz həddə çatmışdı. Naşı və təsadüfi şəxslərin Daxili İşlər Nazirliyində yüksək vəzifələrə təyin olunması, peşəkarların vəzifədən uzaqlaşdırılması bu qurumun işinə son dərəcə mənfi təsir göstərmişdi.

1993-cü ilin ağır günlərində Ümummilli Lider Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə ölkəmiz qurtuluş yoluna qədəm qoydu. Atılan qətiyyətli addımlar sayəsində dövlət strukturları, o cümlədən Daxili İşlər Nazirliyinin fəaliyyətində mühüm dəyişikliklər baş verdi, qanunçuluq təmin olundu. Dövlətçiliyimizin qorunması uğrunda 1994-1995-ci illərdə törədilən çevriliş cəhdlərinin qarşısı daxili işlər orqanlarının da iştirakı ilə qətiyyətlə alındı. Xüsusən 1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəsin imzalanmasından sonra daxili işlər sistemində köklü islahatlar aparıldı. Daxili Qoşunların döyüş hazırlığı yüksəldildi, müasir silah və texnika ilə təminat, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm qərarlar qəbul olundu. Bütövlükdə, Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövrü bütün sahələrdə olduğu kimi daxili işlər orqanlarının fəaliyyətində də yüksəliş mərhələsi kimi yadda qaldı.

Ulu Öndər daxili işlər orqanlarının müstəqil dövlət quruculuğundakı strateji rolunu və institusional çəkisini hər zaman ən yüksək səviyyədə xarakterizə edirdi. Ümummilli Lider ölkədə qayda-qanunların və daxili sabitliyin qorunmasını birbaşa dövlətçiliyin varlığı ilə əlaqələndirir, polisin cəmiyyətdəki yerini sarsılmaz təməl daşı kimi qiymətləndirirdi. Müstəqilliyimizin qorunub saxlanılmasında və gücləndirilməsində daxili işlər sisteminin missiyasını yüksək dəyərləndirən dahi rəhbər bu barədə belə vurğulayırdı: "Azərbaycan Respublikasının dövlət atributlarından biri də Azərbaycan Ordusu ilə yanaşı, Daxili İşlər Nazirliyidir, bu nazirliyin sistemində olan idarələr və qoşun hissələridir, polis orqanlarıdır. Məlumdur ki, hər bir müstəqil dövlət bir neçə böyük sütun üstündə fəaliyyət göstərə bilir. Hər bir dövlət üçün, o cümlədən müstəqil Azərbaycan dövləti üçün bu sütunlardan biri Daxili İşlər Nazirliyi polis orqanlarıdır".




















Ümummilli Liderin formalaşdırdığı güclü idarəçilik təməli ölkəmizi böyük hədəflərə doğru apardı. Uzaqgörən siyasi kursun modern islahatlarla zənginləşdirilməsi asayişin və qanunçuluğun qorunması missiyasını da keyfiyyətcə yeni müstəviyə qaldırdı. İctimai-siyasi sabitliyin, asayişin təmin olunması gələcək uğurlara və yüksəlişə doğru inamla irəliləyən müstəqil dövlətimizin rəmzinə çevrildi. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşməsi üçün lazımi tədbirlər görüldü. Xidməti fəaliyyətin cəmiyyətin maraqlarına tam cavab verməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması məqsədilə müxtəlif fərman və sərəncamlar imzalandı.

Daxili işlər orqanlarının fəaliyyətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi üzrə Azərbaycan Prezidentinin təşəbbüsü ilə 2004-cü ildə qəbul edilmiş dövlət proqramı əsasında mühüm əhəmiyyət kəsb edən tədbirlər görüldü. Həmçinin Daxili Qoşunların peşəkar kadr özəyinin formalaşdırılmasında Türkiyə Silahlı Qüvvələri, o cümlədən Jandarm Baş Komandanlığı ilə hərbi və taktiki əməkdaşlıq daha da gücləndirildi.

Azərbaycan Prezidenti daxili işlər orqanlarının xidməti şəraitinin yaxşılaşdırılmasını, şəxsi heyətin fəaliyyət səmərəliliyinin və peşəkarlığının artırılmasını, sosial rifahının gücləndirilməsini hər zaman diqqət mərkəzində saxlayır. Dövlət başçısı 2018-ci il iyulun 2-də Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə polis orqanlarının şəxsi heyətinə müraciətində bu məqamlara diqqət çəkmişdir: "Ölkəmizdə siyasi sabitlik, əmin-amanlıq hökm sürür, qanunun aliliyi təmin edilir, insan hüquqları ədalətli şəkildə qorunur. Hazırda Azərbaycan polisi güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki imkanlarla təchiz edilmiş, dövlətçiliyimizin qorunması işində önəmli xidmətləri olan mühüm dövlət təsisatıdır. Dövlət tərəfindən daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daim kompleks tədbirlər həyata keçirilir və bu sahədə dövlət qayğısı gələcəkdə də davam etdiriləcək. Öz növbəsində Azərbaycan polisi fəaliyyətini müasir tələblərə uyğun təkmilləşdirməli, cinayətkarlığa qarşı mübarizəni daha böyük əzmlə və qətiyyətlə aparmalıdır".

Prezidentin bu sözləri Azərbaycan polisinin müstəqilliyimizin və daxili sabitliyimizin qorunmasındakı strateji roluna verilən yüksək hüquqi-siyasi qiymətdir. Daxili işlər orqanlarının fəaliyyətinə verilən bu ali qiymət həm də ölkədəki dayanıqlı tərəqqinin və investisiya mühitinin birbaşa təhlükəsizlik amili ilə bağlı olduğunu nümayiş etdirir. Müasir müstəqil Azərbaycan dövlətinin regional liderə çevrilməsi və qlobal layihələrin mərkəzi kimi tanınması məhz bu sarsılmaz asayiş təməlinə söykənir.

Ötən dövrdə şəhər və rayon polis idarələri, polis şöbələri müasir standartlara cavab verən yeni inzibati binalarla, əməliyyat-axtarış və xidməti fəaliyyətin optimal təşkili məqsədilə binalar ən yeni avadanlıqlar və mərkəzləşdirilmiş sistemlərlə, kibercinayətkarlıqla və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizənin effektivliyini artırmaq üçün xüsusi xidmət sahələri, o cümlədən Kibercinayətkarlıqla Mübarizə Mərkəzi ən qabaqcıl rəqəmsal texnologiyalar və proqram təminatları ilə təmin edilib, DİN-in Polis Akademiyasının tədris binalarının, yataqxanalarının və idman komplekslərinin müasir standartlar səviyyəsinə çatdırılması, gənc polislərin ən son hüquqi və taktiki biliklərə yiyələnməsi üçün mükəmməl maddi-texniki baza yaradılıb. Bunlardan əlavə, müasirləşmə tendensiyası fonunda onlarca elektron xidmət, veb-sayt, "qaynar xətt" və digər informasiya resursları, polisin "ASAN xidmət" mərkəzlərində fəaliyyəti təşkil olunub. Vətəndaş məmnunluğunu təmin edən bu və digər fəaliyyətlər xidmətin səmərəsini və operativliyini qat-qat artırıb. Bu islahatların davamı kimi fəaliyyətə başlayan "E-Polis" mobil tətbiqi vasitəsilə vətəndaşlar rəsmi ərizə, şikayət, təklif və ya sorğularını birbaşa onlayn qaydada göndərmək imkanı qazanıblar.

DİN-in sosial şəbəkə hesabları dövlət orqanları arasında ən aktiv və əlçatan resurs kimi fəaliyyət göstərir, burada mütəmadi yayımlanan maarifləndirici video-çarxlar cinayətkarlığa qarşı önəmli profilaktik tədbir rolunu oynayır. Bu inkişaf və modernləşmə vətəndaşlarımızın qanunla qorunan hüquq və mənafelərini etibarlı müdafiə etməyə, cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə, narkotiklərin qanunsuz dövriyyəsinə və insan alverinə qarşı adekvat cavab tədbirləri görməyə tam imkan verir.

Bu gün Azərbaycan polisi cinayətkarlıqla mübarizədə öz peşəkarlığı ilə seçilir və dövlətin konstitusion quruluşuna qəsd etmək istəyənlərin qarşısında sarsılmaz sədd kimi dayanır. Statistika göstərir ki, Azərbaycan polisi peşəkarlığına görə yalnız regionun deyil, bir sıra MDB və Avropa ölkələrinin təhlükəsizlik orqanlarını üstələyir. Bunun səbəbi hüquq-mühafizə orqanlarının dövlətin və vətəndaşın qarşısına çıxan hər bir sınaqda əsl fədakarlıq nümayiş etdirməsidir.

Azərbaycan daxili işlər orqanlarının əməkdaşları öz vətənpərvərliklərini və şücaətlərini 44 günlük Vətən müharibəsində də nümayiş etdirdilər. 2020-ci il sentyabrın 27-də başlayan döyüş əməliyyatlarının ilk anlarından Daxili Qoşunların hərbi qulluqçuları ön cəbhəyə atılaraq torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıqlar göstərdilər. Şəhər və kəndlərin, strateji yüksəkliklərin işğaldan təmizlənməsində Daxili Qoşunların hərbçiləri düşmənə sarsıdıcı zərbələr vuraraq əsl qəhrəmanlıq salnaməsi yazdılar. Azərbaycan tarixinin şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid oldu, 346 hərbi qulluqçu yaralandı, 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü. Doğma yurdumuzun işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşmüş Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif edilib. Müharibədən sonra seçim turlarından uğurla keçən 1000-dən çox Vətən müharibəsi iştirakçısı polis orqanlarında xidmətə qəbul edilib.

2023-cü il sentyabrın 19-20-də Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoymaq məqsədilə keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı polis əməkdaşları qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində yüksək peşəkarlıq göstəriblər. Bu əməliyyatlar zamanı DİN-in 20 əməkdaşı şəhidlik zirvəsinə yuksəlib, onların canı və qanı bahasına bölgədəki separatçı yuvaları və qanunsuz silahlı birləşmələr tamamilə ləğv edilib, tarixi ədalət və qanunun aliliyi bərqərar olunub.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə Böyük qayıdış prosesinin sürətləndirilməsi və təhlükəsizliyin etibarlı təmin edilməsi məqsədilə daxili işlər orqanlarının əməkdaşları Qarabağ və Şərqi Zəngəzurda gecə-gündüz xidmət aparırlar. Bu ərazilərdə strateji infrastruktur obyektlərinin, eləcə də yenidən qurulan şəhər və kəndlərin mühafizəsi ən yüksək səviyyədə təşkil edilib.

Hazırda işğaldan azad edilmiş ərazilərdə həyatın normal axarına qayıtması üçün xidmətə cəlb edilən şəxsi heyətin əsas prioritet fəaliyyət istiqamətlərindən biri ərazilərin qanunsuz silahlardan, partlayıcı maddələrdən və təhlükəli müharibə qalıqlarından təmizlənməsidir. ANAMA və digər aidiyyəti qurumlarla koordinasiyalı şəkildə fəaliyyət göstərən daxili işlər orqanlarının əməkdaşları işğaldan azad edilmiş ərazilərimizdə silah-sursat, mina və partlamamış hərbi sursatların aşkar edilərək zərərsizləşdirilməsi prosesində iştirak edirlər. Bu fədakar xidmət azad olunmuş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin fasiləsizliyinə təminat verməklə yanaşı, doğma yurduna dönən hər bir vətəndaşımızın təhlükəsiz yaşayışının zəmanətidir.

İctimai qaydaların, qanunçuluğun nümunəvi qorunmasında, ölkə daxilində sabitliyin təmin edilməsində qazanılan uğurların nəticəsində Azərbaycan qlobal müstəvidə özünün sabitlik və təhlükəsizlik baxımından imicini möhkəmləndirib. Bakının yüksək səviyyədə təşkil etdiyi "Avroviziya", Avropa Oyunları və İslam Həmrəyliyi Oyunlarından sonra beynəlxalq miqyaslı COP29 və WUF13 kimi tədbirlərə evsahibliyi etməsi də ölkəmizdə bərqərar olan asayişin qlobal səviyyədə qəbul olunmasının əyani göstəricisidir. On minlərlə xarici qonağın, dövlət və hökumət başçılarının, eləcə də beynəlxalq nümayəndə heyətlərinin iştirak etdiyi irimiqyaslı tədbirlər zamanı asayişin və təhlükəsizliyin qüsursuz şəkildə təmin olunması daxili işlər orqanlarının peşəkarlığının təntənəsidir.

Azərbaycan polisinin 108 illik tarixi salnaməsi sübut edir ki, asayişin qorunması, sadəcə, hüquqi vəzifə deyil, həm də dövlət müstəqilliyinin dayanıqlılığına xidmət edən müqəddəs missiyadır. Ötən birəsrlik keşməkeşli dövrdə cümhuriyyətdən Vətən müharibəsinin şanlı səhifələrinə və müasir qlobal çağırışlara qədər hər sınaqdan alnıaçıq çıxan Azərbaycan polisi bu gün xalq-dövlət birliyinin ən etibarlı dayaqlarından biridir. Ölkəmizdəki daxili sabitliyin əsas qarantı olan polisimizin arxasında Azərbaycan xalqının sarsılmaz inamı, qüdrətli dövlətimiz və Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı dayanır.

Azərbaycan daxili işlər orqanları güclü maddi-texniki bazası, ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunması üzrə dəqiq təşkil edilmiş sistem və peşəkar kadr korpusu olan mərkəzləşdirilmiş hüquq-mühafizə strukturudur. Ümumiyyətlə, daxili işlər orqanlarında xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsi, fəaliyyətdə dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin hər zaman qorunması üçün düzgün kadr seçimi xüsusi diqqət mərkəzində saxlanılır. Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən mütəmadi olaraq keçirilən sıra baxışlarında tələblərə və göstəricilərə cavab verən gənclər polis orqanlarında xidmət etmək imkanı əldə edirlər.

Şərəfli xidmət yolu keçən asayiş keşikçilərimiz dövlətimizin qüdrətlənməsi naminə yeni uğurlara doğru inamla addımlamaqda davam edirlər. Şübhə yox ki, öz andına daim sadiq olan daxili işlər orqanlarının hər bir əməkdaşı ictimai asayişi, cəmiyyətin və dövlətin ali mənafelərini, vətəndaşların konstitusion hüquq və azadlıqlarını qorumaq missiyasını bundan sonra da eyni qətiyyət və şərəflə yerinə yetirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Gübrələrin çeşidinin artırılması dövrün tələbidir

**Kənd təsərrüfatının inkişafı üçün gübrə ilə təminatın vacib şərtlərdən biri olduğu danılmaz, hamıya məlum olan həqiqətdir. Təsadüfi deyil ki, Azərbaycan dövləti aqrar sahədə məhsuldarlığı yüksəltmək məqsədilə gübrə istehsalını artırmağı prioritetlərdən biri kimi bəyan edib. Bu məsələ "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda da öz əksini tapıb.**



Ölkəmizdə gübrə istehsalından söz açanda ilk növbədə Karbamid zavodu yada düşür. Belə ki, bu zavod istifadəyə verilənə qədər Azərbaycan azot gübrələrini idxal edirdi. İndi isə bu müəssisə həm daxili bazarın tələbatını tam ödəyə bilir, həm də istehsal etdiyi məhsulun 70 faizdən çoxunu ixraca yönəldir. Nəticədə əvvəllər idxal üçün sərf edilən böyük vəsait ölkəmizdə qalır, eyni zamanda qeyri-neft ixracının gəlirləri artır. Müəssisədə istehsal olunan karbamid gübrəsi indiyədək Braziliya, Türkiyə, Rumıniya, Rusiya, Bolqarıstan, Albaniya, İtaliya, Gürcüstan və digər ölkələrə ixrac olunub.

SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Sumqayıt şəhərində yerləşən bu müəssisəsinin təməli 2011-ci ildə qoyulub, açılışı isə 2019-cu il yanvarın 16-da Prezident İlham Əliyevin iştirakı ilə olub. İstismara verildiyi dövrdə Karbamid zavodu Azərbaycanda qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihə idi.

Qeyd etmək lazımdır ki, karbamid ən zəngin azot tərkibinə malik olan və dünyada ən çox istifadə edilən gübrədir. Karbamidin əsas funksiyası bitkilərin inkişafı və məhsuldarlığın artırılması üçün onları lazım olan azotla təmin etməkdir. Bu gübrə eləcə də bitkilərin fotosintez prosesində mühüm rol oynayır.

Karbamidə olan yüksək tələbat onun aşağı maya dəyəri, qənaətcil və təhlükəsiz daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlıq verməsi ilə əlaqədardır. Digər azot gübrəsi - ammonium-nitratdan fərqli olaraq karbamid gübrəsi yanğın və ya partlayış təhlükəsi yaratmadığına görə saxlanılma və daşıma baxımından etibarlı və sərfəli məhsul sayılır.

46,3 faiz, yəni ən yüksək azot tərkibinə malik olduğuna və suda tez həll edildiyinə görə bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əmələ gəlir. Onun bir üstünlüyü də həm ayrı, həm də digər gübrələrlə birgə istifadə oluna bilməsidir. Bundan başqa, karbamiddən mal-qara yemi və digər kimyəvi maddələrin istehsalında, eləcə də əczaçılıqda geniş istifadə olunur.

Zavodun layihələndirilməsi və tikintisi ammonyak istehsalı üzrə Danimarkanın "Haldor Topsoe" və karbamid istehsalı üzrə Niderlandın "Stamicarbon B.V" şirkətlərinin texnologiyası əsasında Cənubi Koreyanın "Samsung Engineering" şirkəti tərəfindən həyata keçirilib. Finlandiyanın "Neste Engineering Solutions" şirkəti layihənin idarə edilməsi üzrə məsləhət və müstəqil təftiş xidmətləri göstərib. Tikintinin pik vaxtında zavodun inşasına, ümumilikdə 3600 nəfərdən artıq işçi cəlb olunub və 18 milyon adam-saatdan çox iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.

Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti hesabına həyata keçirilib. Daha sonra Cənubi Koreyanın İxrac-idxal Bankından (KEXIM), habelə "Societe Generale" (Fransa), "Deutsche Bank" (Almaniya) və "UniCredit" (Avstriya) banklarından dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Həmçinin layihə ilə bağlı vergi və rüsumların, habelə digər xərclərin ödənilməsi məqsədilə SOCAR tərəfindən təxminən 100 milyon avro məbləğində vəsait ayrılıb.

Karbamid zavodu il ərzində 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malikdir. Zavodun özəlliyi həm də ondan ibarətdir ki, burada xammal kimi istifadə olunan məhsul təbii qazdır, yerli məhsuldur. Yəni karbamidin tərkibində xarici komponent yoxdur.

İstər ölkəmizdə, istərsə də dünyada gübrəyə tələbatın artdığı indiki vaxtda sözügedən müəssisənin əhəmiyyəti daha da artır və üzərinə düşən vəzifələr çoxalır. Bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev gübrə istehsalının artırılması məsələsi üzərində xüsusi dayanaraq demişdir: "Biz indi Karbamid zavodunun fəaliyyəti nəticəsində nəinki özümüzü, hətta bir çox ölkələri azot gübrələri ilə təmin edirik. Ancaq bu, cəmi bir növ gübrədir. Bizə bir çox növ gübrələr lazımdır. Ona görə bəzi xarici şirkətlərlə indi bu məsələlər müzakirə edilir, Azərbaycanda qarışıq gübrə istehsalının yaradılması və gübrələrin fasiləsiz ölkəmizə idxal edilməsi. Çünki bu məsələlərdə də dünyada indi vəziyyət qeyri-müəyyəndir. Bəzi gübrə zavodları bağlanıb, çünki qazın qiyməti kəskin artanda gübrə istehsalı iqtisadi cəhətdən səmərəli olmur, müəyyən qıtlıq yaradılır. Ona görə, əlbəttə, praqmatizm nöqteyi-nəzərindən biz başa düşməliyik ki, biz bütün növ gübrələri istehsal edə bilməyəcəyik, ancaq hər halda onların çeşidlərini genişləndirməliyik".

Azərbaycanda gübrə istehsalının ümumi mənzərəsinə də bir nəzər salaq. "AZCHEMCO" şirkəti tərkibində texniki elementlər olan və bitkilər üçün xüsusi formulalı pestisid və gübrələrin istehsalını həyata keçirir. Buna suda həll olan və bioloji gübrələr deyilir. "Humix" MMC isə aqrokimyəvi maddələr və gübrələr istehsalı üzrə ixtisaslaşıb.

Sabirabad rayonunda kompleks gübrə istehsal olunur. Sabirabad Sənaye Məhəlləsində orqanomineral (toz), kimyəvi (maye-toz) və qranul gübrələr istehsal edən müəssisələr fəaliyyət göstərir. "AqroBioEkoTex" MMC tərəfindən ekoloji təmiz üzvi gübrələrin istehsalı genişləndirilir.

Gübrələrin çeşidlərinin genişləndirilməsi isə məhz günün tələbidir və Azərbaycan dövləti bunu qarşıya bir vəzifə kimi qoyub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Aqrar sığortanın əhatə dairəsi daha da genişlənəcək

### Bu, aqrar sektorun inkişafına dair qəbul olunmuş yeni dövlət proqramında nəzərdə tutulub

**Aqrar sektorun ən riskli sahə olduğu məlum faktdır. Son vaxtlar baş verən iqlim dəyişikliklərinin fəsadları bunu növbəti dəfə sübut etdi. Aşırı quraqlıq və yağışlar, sel suları və dolu kənd təsərrüfatına olmazın ziyan vurdu.**



Azərbaycanda dövlət bu riskləri nəzərə alaraq kənd təsərrüfatında çalışanlara qarşılaşa biləcəkləri risklərdən qorunmaq üçün aqrar sığorta xətti ilə dəstək verir. Bu dəstəyin istehsalçı üçün ən sərfəli üsulu hər növ sığortada ödənişinin 50 faizinin dövlət tərəfindən ödənilməsidir.

Onu da qeyd edək ki, Azərbaycanda dövlət dəstəyi ilə güzəştli şərtlərlə tətbiq edilən aqrar sığorta mexanizminin əhatə dairəsi daha da genişləndiriləcək. Bu, Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulur. Həmin proqrama əsasən, aqrar sığortanın əhatə etdiyi əkinlərin sahəsi 2025-ci ildəki 386 min hektardan 2030-cu ildə 1 milyon hektara, kənd təsərrüfatı heyvanlarının sayı isə 7 min başdan 100 min başa çatdırılacaq.

Eyni zamanda aqrar sığortanın əhatə dairəsinin də genişləndirilməsi zərurəti yaranıb. Ona görə də aqrar sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərinin və risklərin tərkibinin bitkiçilik, heyvandarlıq və balıqçılıq üzrə genişləndirilməsi istiqamətində təkliflər hazırlanacaq. Bundan başqa, "Aqrar sığorta" informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi, müstəqil aqrar sığorta ekspertləri institutunun inkişaf etdirilməsi nəzərdə tutulur. Həmçinin aqrar sığorta xidmətləri tam elektronlaşdırılacaq, fermerlərin sığortaya əlçatanlığı artacaq, sığorta ödənişlərinin operativliyi təmin ediləcək.

Aqrar sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlərə, predmet və risklərə münasibətdə diferensiallaşdırılması da nəzərdə tutulur. Qarşıya qoyulan məqsədə çatmaq üçün dövlət dəstəyinin diferensiallaşdırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və aqrar sahədə diferensiallaşdırılmış sistemə keçidə başlanılması gözlənilir. Yeri gəlmişkən, fermerlər rəqəmsal imkanlardan istifadə etməklə olduğu yeri tərk etmədən əkin sahəsini və ya təsərrüfatını sığortalaya və "ASAN Pay" ödəniş sistemi ilə sığorta haqqını ödəyə bilərlər.

Xatırladaq ki, fəaliyyətə başladığı gündən indiyədək Aqrar Sığorta Fondu tərəfindən fermer və təsərrüfatlara ümumilikdə 23 milyon manat sığorta ödənişi həyata keçirilib. Bu məbləğin 19,5 milyon manatı əkin sahələrinə, 3,5 milyon manatı heyvandarlıq təsərrüfatlarına dəymiş zərərlərə görə ödənilib. Cari il üçün də fermerlərə dəyən ziyanın ödənilməsinə başlanılıb. Bir neçə gün əvvəl Aqrar Sığorta Fondu tərəfindən Göygöl və Samux rayonlarından olan fermerlərə heyvandarlıq sığortası üzrə ödənişlər həyata keçirilib. Samuxun Füzuli kəndindən olan fermer Mikayıl Camalova məxsus 2 baş qaramal yoluxucu xəstəlikdən tələf olduğuna görə, ASF tərəfindən 11700 manat zərər ödənişi edilib. Yeni Qızılca kəndindən olan tanınmış fermer Mustafa Bəhruza isə 2 baş qaramal yoluxucu xəstəlikdən tələf olduğu üçün 7 950 manat aqrar sığorta vəsaiti verilib.

Xatırladaq ki, ASF ümumilikdə indiyədək heyvandarlıq sığortası üzrə fermer və təsərrüfatlara 3,5 milyon manat sığorta ödənişi həyata keçirib. Ən çox baş verən sığorta hadisələri yoluxucu xəstəliklər, yemdən və otdan zəhərlənmə, vəhşi heyvan hücumu hallarıdır. Xatırladaq ki, dövlət dəstəkli olmasına, yəni sığorta haqqının yarısı dövlət tərəfindən ödənildiyinə görə heyvanların aqrar sığorta vasitəsilə sığortalanması fermerlər üçün olduqca əlçatandır. Məsələn, 1000 manatlıq qaramalın (inək və ya camışın) illik sığortalanması fermerə cəmi 24-39, 300 manatlıq davarın (qoyun və ya keçinin) sığortalanması isə 7-11 manata başa gəlir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Məqsəd üst-üstə düşəndə...

### Dövlətin də, kəndlinin də hədəfi daxili istehsal hesabına ərzaq bolluğu yaratmaqdır

**Masallı əhalisinin sayına görə ölkənin iri rayonlarındandır. Əhalisi 228,6 min nəfər, ərazisi 721 kvadratkilometrdir. Rayon üzrə 1 kvadratkilometrə 285 nəfər əhali düşür ki, bu da dünya əhalisinin sıxlığından 7 dəfə çoxdur.**













Masallıda əhalinin 77,2 faizi kənd və qəsəbələrdə yaşayır. Əsasən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və heyvandarlıqla məşğuldurlar. Beləcə, Masallı kəndlisinin gün-güzəranı torpaqla bağlıdır. Buna görə də Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar gördüyü tədbirləri, o cümlədən çayçılığın, sitrus meyvəçiliyinin, çəltikçiliyin, heyvandarlığın, baramaçılığın və s. sahələrin inkişafı ilə bağlı imzaladığı sərəncamları sevinc və məsuliyyət hissi ilə qarşılayırlar.

Ölkədə son illər ixracyönümlü məhsulların istehsalının artırılması, idxaldan asılılığın minimuma endirilməsi istiqamətində görülən işlər Masallı rayonunda da kənd təsərrüfatının dinamik inkişafına, məhsul istehsalının artımına stimul vermişdir.

#### Kartofçuluq

indi kəndli fermerlərin başlıca fəaliyyət növünə, gəlir yerinə çevrilib. Əgər 2021-ci ildə Masallıda 893,6 hektar sahədə kartof əkilmişdisə, cari il bu rəqəm 1360 hektar təşkil edib. Əkin sahəsi kimi məhsuldarlıq da ilbəil artıb. Fermerlər bu il ümumilikdə 23 min 936 ton kartof əldə edərək hər hektarın məhsuldarlığını 176 sentnerə çatdırıblar. Yetişdirilən kartof yerli bazarlarla yanaşı, nübar məhsul kimi həm də Rusiya Federasiyasında satılıb.

Bir çox fermer sahələrdən ümumi rayon səviyyəsindən xeyli çox məhsul götürüb. Təklə, Təzə Alvadı, Köhnə Alvadı, Banbaşı, Çaxırlı və digər kəndlərdə yaşayan təcrübəli fermerlər bu baxımdan xüsusi qeyd edilməlidirlər. Onlar kartofçuluğu həm də digər bitkilər üçün yaxşı sələf hesab edirlər. Bilirlər ki, növbəli əkinin tətbiqi nəticəsində torpaq daha məhsuldar olur, xəstəliklərə az tutulur.

#### Taxıl

istehsalı əkinçilikdə həmişə prioritet olub və bu gün də belədir. Prezident İlham Əliyev mayın 25-də keçirdiyi müşavirədəki çıxışında və təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda hər hektardan taxıl istehsalını 50 sentnerə çatdırmağı qarşıya məqsəd qoymuşdur.

Qayıdaq Masallıya. Rayonda keçən ilin payızı bu ilin məhsulu üçün 7 min 391 hektara buğda, 2 min 952 hektara arpa toxumu səpilib. Payızda və yazda havaların yağmurlu keçməsi sahələrdə normal çıxış alınmasına və bitkilərin inkişafına müsbət təsir göstərib. Torpaq mülkiyyətçiləri, sahibkarlar işlərinə məsuliyyətlə yanaşaraq hər hektardan daha çox məhsul götürmək üçün aqrotexniki tədbirləri yubatmayıblar. Yemləməni, ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirlərini, suvarmanı vaxtında həyata keçiriblər. Arpa sahələrində biçin başa çatıb. Hər hektardan 22,6 sentner məhsul götürülüb. Buğda sahələrində də biçin tamamlanmaq üzrədir. Məhsuldarlıq isə hər hektardan 24,7 sentnerdir.

#### Ənənəvi bitkiçilik

sahələrinin inkişafı da rayonda diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənmiş kənd təsərrüfatının inkişafı üzrə uzunmüddətli yol xəritəsinə müvafiq olaraq, ənənəvi bitkiçilik sahələrinin inkişafı üçün təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Rayonda ümumilikdə 24 min 907 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi mövcuddur və onun təqribən 10 min hektarı suvarılan ərazilərdir. Bunun 250,2 hektarı çiyələk, 133,8 hektarı çay plantasiyaları və 34 hektarı yeni salınmış sitrus bağlarıdır.

#### Çəltikçilik

sahəsinə bir sıra çətinliklərə baxmayaraq maraq çoxdur. Bu il rayon üzrə 180 hektarda çəltik əkilib. Bu da keçən ildəkindən çoxdur. Xıl, Boradigah, Şıxlar, Türklə, Hişkədərə və Türkoba kəndləri bu sahədə daha çox fərqlənirlər.

Hazırda bazarlarda, mağazalarda cənub bölgəsində yetişdirilən düyü satılır. Yerli düyü keyfiyyətinə görə xaricdən gətirilən düyülərdən üstündür. Yeri gəlmişkən qeyd edək ki, Masallıda kiçik çəltik zavodu fəaliyyət göstərir. Zavodun avadanlıqları Çindən gətirilib. Sutkalıq gücü 20 ton olan müəssisənin açılışında Prezident İlham Əliyev iştirak edib.

#### Tərəvəzçilik

Hələ sovet dövründə buradan Moskvaya, Sankt-Peterburqa, SSRİ-nin ən ucqar şəhərlərinə pomidor, xiyar, kələm və s. tərəvəz məhsulları göndərilib. Sovet İttifaqının süqutundan sonra iqtisadi əlaqələrin bir müddət zəifləməsi üzündən bu sahə üzrə ixrac imkanları məhdudlaşmışdı. Lakin aqrar sahəyə dövlət tərəfindən göstərilən diqqət və qayğı nəticəsində digər sahələr kimi, tərəvəzçilik də inkişaf etdi. Hazırda Masallıda yetişdirilən bostan-tərəvəz məhsulları həm daxili bazarlarda satılır, həm də xarici ölkələrə ixrac olunur. Tərəvəz istehsalı sahəsində Qızılağac, Lürən, Xıl, Təklə, Çaxırlı, Öncəqala kəndlərinin fermerləri, torpaq mülkiyyətçiləri daha yüksək nəticələr əldə edirlər.

#### Çayçılıq

Masallının kənd təsərüfatının gəlirli sahələrindəndir. Bu sahənin inkişafı ilə bağlı Prezidentin imzaladığı sənədlərin icrası çərçivəsində rayonda müəyyən işlər görülüb. Uzun illər baxımsız qalmış plantasiyalar təmir edilib, yeni çay sahələri salınıb.

Hazırda rayon ərazisində 105,5 hektar çay plantasiyası mövcuddur ki, onun da 50 hektarı məhsuldar, 55,5 hektarı təzə əkilmiş plantasiyalardır. Keçən il rayon üzrə 26 ton məhsul tədarük olunub. Ötən il Mahmudavar və Tüklə kəndlərində sahibkarlar tərəfindən emal müəssisələri yaradılıb.

#### Çiyələk

əkinlərinə son vaxtlar xüsusi maraq var. "Çiyələkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"ndan sonra rayonda çiyələk sahələri 180 hektara çatıb. Fermerlər, sahibkarlar daha məhsuldar sortlar əkib-becərərək yüksək nəticələr əldə edirlər. Rayon üzrə orta məhsuldarlıq 35,7 sentner təşkil edir. Çiyələk həm açıq, həm də istixana şəraitində yetişdirilir.

#### Tütünçülük

Masallı üçün nisbətən yeni sahədir. Cari təsərrüfat ilində rayonda 15 hektarda tütün becərilir. Keçən il 26,7 ton quru tütün tədarük olunub. Tütünçülük gəlirli sahə olmaqla bərabər, həm də əməktutumludur. Mövsüm ərzində 1 hektarı əkib-becərmək üçün 3 nəfər işçi qüvvəsi tələb olunur.

#### Baramaçılıq

kənd təsərrüfatında ənənəvi sahələrdən biridir. Baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illəri əhatə edən dövlət proqramı bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etdi. Sonra rayonun ayrı-ayrı ərazilərində ÇXR-dən gətirilmiş 60 min və yerli sortlardan olan 31 mindən çox ting əkildi.

Keçən il rayonda 1 ton 155 kiloqram yaş barama istehsal olunub. Cari ildə isə rayona 90 qutudan artıq ipəkqurdu toxumu gətirilərək kümçülərə təhvil verilib. Hazırda yaş barama tədarükü hələ başa çatmayıb. Kümçülər yetişdirdikləri məhsulu mərhələli şəkildə qəbul məntəqələrinə təhvil verirlər. Həmin məntəqələrdə toplanılan ilk məhsullar Şəkidəki emal müəssisələrinə göndərilib.

Prezident İlham Əliyevin aqrar sahənin inkişaf etdirilməsi barədə imzaladığı sərəncamların icrası ilə bağlı qarşıda duran vəzifələr rayonun ayrı-ayrı zonalarında geniş müzakirə olunur. Rayon rəhbərliyinin təşkilatçılığı ilə keçirilən müzakirələrdə aidiyyəti qurumların rəhbərləri, ərazi nümayəndələri, bələdiyyə sədrləri, fermerlər, sahibkarlar və mütəxəssislər iştirak edirlər. Həmin müşavirələrdə mövsümi işlər təhlil edilir, ortaya çıxan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirilir. Rayonda kartofyığan texnikanın, keyfiyyətli çəltik toxumunun, kartofun saxlanılması üçün soyuducu kameraların və anbarların sayının azalması, bəzi çəltik sahələrinə əkin suyunun lazımi səviyyədə verilməməsi qeyd olunur.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# "Süni intellekt vasitəsilə yaradılan dəyər ümumi qlobal iqtisadi artımdan daha yüksəkdir"

Məlum olduğu kimi, bu ilin fevral ayında "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənib və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində işlərə başlanılıb. Beləliklə, qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret yol xəritəsi müəyyən olunub.



Bu baxımdan iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası da xüsusi əhəmiyyət daşıyır. İndi əsas məqsədlərdən biri günümüzün inkişaf amili hesab edilən süni intellekt və rəqəmsal transformasiya imkanlarından bütün sahələrdə səmərəli şəkildə yararlanmaqdır. Bununla da ölkə iqtisadiyyatının inkişafına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması hədəflənir. Bütün bunların həyata keçirilməsi üçün isə ilk növbədə qanunvericilik bazasının təkmilləşdirilməsi vacibdir.

Qeyd edək ki, "Kraudfandinq haqqında" qanun layihəsi artıq hazırlanıb. Layihənin məqsədi ölkədə innovasiya ekosisteminin qurulması istiqamətində təməl prinsiplərin və hüquqi çərçivənin formalaşdırılmasıdır. Sənəddə səhm və borc əsaslı kraudfandinqin həyata keçirilməsinin hüquqi, təşkilati və iqtisadi əsasları müəyyən edilir. Yeni layihə eyni zamanda investorların müdafiəsi üçün xüsusi mexanizmlər formalaşdırır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da qeyd etdiyi kimi, məqsəd Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

Mövzu ilə bağlı **Milli Məclisin deputatı Vüqar BAYRAMOV** qəzetimizə açıqlamasında söyləyib ki, rəqəmsal inkişaf, eyni zamanda süni intellektin dəstəklənməsi Azərbaycan üçün prioritet istiqamətlərdəndir: "Rəqəmsal İnkişaf Şurasının ilk iclasında Birinci vitse-prezident Mehriban Əliyeva da qeyd etdi ki, Azərbaycan artıq bu istiqamətdə regionun aparıcı dövlətlərindən birinə çevrilməyi hədəfləyir. Yol xəritəsinin təsdiqi də bu yöndə fəaliyyətlərin sistemli şəkildə keçiriləcəyindən xəbər verir. Bütün bunlarla yanaşı, qanunvericilik bazasının təkmilləşdirilməsi də vacibdir".

Deputat Milli Məclisə artıq "Kraudfandinq haqqında" qanun layihəsinin daxil olduğunu xatırladaraq bildirib ki, bu, yeni layihədir və özündə rəqəmsal maliyyə resurslarının genişlənməsini ehtiva edir. Həmçinin digər istiqamətlər, xüsusən süni intellekt, rəqəmsal inkişafla bağlı da qanunvericiliyin təkmilləşdirilməsi əsas hədəflərdəndir. "Bütövlükdə qlobal müqayisələr göstərir ki, süni intellekt vasitəsilə yaradılan dəyər ümumi qlobal iqtisadi artımdan daha yüksəkdir. Bu baxımdan bir sıra ölkələrdə süni intellekt iqtisadiyyatda xüsusi paya malikdir. Bu da nəticə etibarilə ekosistemdəki dəyişikliklərə uyğun olaraq, Azərbaycanda da süni intellekt, rəqəmsal inkişafın iqtisadiyyatda payının artması və bu istiqamətdə diversifikasiya meyillərinin güclənməsini gündəmə gətirir" deyən V.Bayramov vurğulayıb ki, həmin istiqamətdə həyata keçirilən fəaliyyətlər, sistemli tədbirlər bir tərəfdən iqtisadiyyatın şaxələnməsinə, digər tərəfdən isə iqtisadi artımın tempinin yüksəlməsinə, xüsusən bu sahədə yeni dəyərin yaradılmasına imkan verəcək və bu da ekosistemin keyfiyyətcə daha da yeniləşməsinə xidmət edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Azərbaycanın rəqəmsal transformasiyası

## Həyata keçirilən sistemli islahatlar yaxın gələcəkdə ölkəmizi regionun ən güclü rəqəmsal və innovativ mərkəzinə çevirəcək

**Məlum olduğu kimi, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunan müşavirə keçirilmiş, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənmişdir. Bununla da ölkədə qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret yol xəritəsi müəyyən olunmuşdur.**

İyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında müşavirədən ötən dövrdə görülən işlər, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti müzakirə olundu. Mehriban xanım Əliyeva bildirdi ki, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası şuranın əsas fəaliyyət istiqamətidir: "Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır".

İclasda süni intellekt texnologiyalarının dövlət və özəl sektora inteqrasiyası, milli kibertəhlükəsizlik infrastrukturunun gücləndirilməsi kimi məsələlərə də toxunuldu. Eyni zamanda ölkədə innovasiya ekosisteminin tənzimlənməsi üçün hazırlanan qanunvericilik islahatları, rəqəmsal dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və rəqəmsal təhsil layihələrinin genişləndirilməsi ətrafında müzakirələr aparıldı.

Rəqəmsal hədəflərimizə nəzər salanda görünür ki, qarşıya qoyulan əsas məqsəd, sadəcə, yeni texnologiyaları tətbiq etməkdən ibarət deyil. Ölkəmiz bu texnologiyalar vasitəsilə iqtisadiyyata güclü təkan vermək, müasir innovasiya ekosistemi formalaşdırmaq niyyətindədir. Eyni zamanda xarici investisiyaların ölkəyə cəlb edilməsi, yerli startaplara tam dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılması prosesin əsas sütunları kimi çıxış edir. Bu strateji addımlar Azərbaycan iqtisadiyyatının inkişafına yeni töhfə verəcək. Bununla da ölkəmiz qlobal bazara yüksək texnologiyalar ixrac edən güclü dövlətə çevriləcək.

İclasda toxunulan məsələlər ölkəmizdə rəqəmsal sahədə necə böyük bir canlanmanın olduğunu sübut edir. Fəaliyyət Planı bütövlükdə rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 mühüm təşəbbüsü əhatə edir. Bu təşəbbüslərin həyata keçirilməsi üçün artıq 40 dövlət qurumu ilə xüsusi yol xəritələri hazırlanıb. Bu xəritələrdən 13-ü artıq təsdiqlənib və ya hazırda təsdiq mərhələsindədir.

Dövlət sisteminin rəqəmsallaşdırılması istiqamətində digər böyük addım Milli Məlumat Hövzəsinin yaradılmasıdır. Hazırda dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni böyük data mərkəzinin tikintisi sürətlə davam edir.

Vətəndaşların ən çox istifadə etdiyi "mygov" platforması isə son aylar rekord göstəricilərə imza atıb. 3 ay ərzində platformanın istifadəçilərinin sayı 2,7 milyondan 3,5 milyona yüksəlib. Artıq bir neçə mühüm tətbiq platformaya uğurla inteqrasiya olunub. Daha 7 dövlət tətbiqinin xidmətləri də ilin sonunadək tam olaraq vətəndaşların istifadəsinə veriləcək. İstifadəçilərin belə sürətlə artması xidmətlərin keyfiyyətindən xəbər verir. Bu sistem sənəd işlərini asanlaşdırır, vaxt itkisini önləyir və şəffaflığı təmin edir.

Bundan əlavə, artıq "mygov" və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqi genişləndirilir, həmçinin vətəndaşlar üçün virtual köməkçi xidməti fəaliyyət göstərir. İnnovasiya ekosistemini gücləndirmək və texnoloji şirkətləri bir araya gətirmək məqsədilə Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanılıb. Kibertəhlükəsizlik sahəsində isə Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin qurulması işləri davam edir. Dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platforması da tezliklə hazır olacaq. Bu yeni təhlükəsizlik mərkəzləri ölkəmizi kiberhücumlardan qoruyacaq. Dövlətimiz hər hansı bir təhlükəni öncədən görüb qarşısını ala biləcək.

Rəqəmsal transformasiyanın uğurlu olması üçün güclü hüquqi baza mütləqdir. İclasda rəqəmsal sahədə qanunvericilik üzrə hazırlanan köklü islahatlar barədə ətraflı məlumat verildi. Bildirildi ki, hüquqi müəyyənliyin təmin edilməsi, rəqabətqabiliyyətli və cəlbedici vergi mühitinin formalaşdırılması, innovasiyaların maliyyələşdirilməsi sistemlərinin qurulması, elmi-tədqiqat və innovasiya sahəsində xüsusi təşviqlərin tətbiqi, xarici və yerli istedadların ölkəyə cəlb edilməsi, şirkətlərin bazara çıxış imkanlarının genişləndirilməsi, kibertəhlükəsizlik sahəsində tənzimləmənin ən müasir səviyyəyə çatdırılması bu istiqamətdə mühüm proseslərdir. Bununla əlaqədar dünya təcrübəsi dərindən öyrənilib və beynəlxalq mühitdə özünü doğrultmuş uğurlu modellər əsas götürülüb.

Təhsil sahəsinin rəqəmsallaşdırılması da diqqət mərkəzindədir. Hazırda təhsil müəssisələrinin vahid internet şəbəkəsi ilə təmin olunması istiqamətində işlər görülür. "Rəqəmsal məktəb" layihəsi çərçivəsində təhsil pillələri üzrə bütün məlumatlar və təhsil sənədləri tam elektronlaşdırılıb. Növbəti əsas mərhələ birbaşa tədris prosesinin özünün rəqəmsallaşdırılması olacaq. Məktəblərdə isə xüsusi layihələr icra olunur. "Rəqəmsal bacarıqlar" və "STEAM Azərbaycan" kimi layihələr uşaqlara erkən yaşlardan proqramlaşdırma, tənqidi təfəkkür və mühəndislik bacarıqlarını aşılayır.

Azərbaycan, sadəcə, texnologiya istehlak edən yox, texnologiya yaradan və onu idarə edən bir dövlət olmaq yolundadır. Həyata keçirilən sistemli islahatlar yaxın gələcəkdə ölkəmizi regionun ən güclü rəqəmsal və innovativ mərkəzinə çevirəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Türk dünyası birliyi qlobal miqyasda mövqeyini möhkəmləndirir

**Bu günlər Azərbaycan növbəti möhtəşəm tədbirə evsahibliyi edir - Bakıda 100 il əvvəl keçirilmiş I Türkoloji Qurultaya həsr olunmuş "Türk Dünyası Həftəsi"dir. Tədbirə türk dövlətləri daxil olmaqla 20 ölkədən rəsmilər, türk əməkdaşlıq təşkilatlarının rəhbərləri və nümayəndələri, eləcə də 126 türkoloq-alim qatılıb.**



"Türk Dünyası Həftəsi"nin açılış mərasiminin Heydər Əliyev Mərkəzində böyük təntənə və qardaşlıq ovqatı ilə gerçəkləşdiyini deyən **Milli Məclisin deputatı Günay ƏFƏNDİYEVA** diqqətə çatdırıb ki, tədbirə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dövlət başçılarının təbrik məktubları ünvanlanıb, türk həmrəyliyinə dəstəklərini ifadə edən fikirləri, xoş arzuları səsləndirilib: "Dövlət başçılarının tədbirə xüsusi münasibəti türk dünyasının mənəvi birliyinin, həmrəyliyinin ortaq siyasi iradə ilə mühüm vəhdət təşkil etdiyini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev məktubunda vurğuladığı kimi, türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Yüz il əvvəl Bakıda türk xalqlarının gələcəyini düşünən, dilini, tarixini, mədəniyyətini qorumağa çalışan böyük ziyalılar toplaşmışdı. Təəssüf ki, onların bir çoxu sonralar repressiyaların qurbanı oldu. Onların taleyi yarımçıq qaldı, amma irəli sürdüyü fikirlər, təşəbbüslər, arzular illər sonra reallığa çevrildi".

Deputat qeyd edib ki, həmin ziyalılar türk xalqlarının bir-birinə daha da yaxınlaşacağına, həmrəylik nümayiş etdirəcəyinə inanır, türk dünyasının birliyini gec-tez gerçəkləşəcək tarixi zərurət kimi görürdülər: "Bu gün birgə səylərin nəticəsində həmin arzular addım-addım həyata keçirilir.

G.Əfəndiyevanın sözlərinə görə, türk dünyasında gündən-günə dərinləşən əməkdaşlıq mühiti qurultay iştirakçılarının ruhuna böyük ehtiramdır: "Bu gün türk ölkələrinin başçılarının qardaşlıq münasibətləri, etimadı, sıx qarşılıqlı səfərləri, müntəzəm görüşləri və vahid siyasi baxışı sayəsində türk dünyası tarixinin ən mühüm yaxınlaşma dövrünü yaşayır. Nəqliyyat dəhlizlərindən enerji layihələrinə, elm və təhsildən mədəniyyətə qədər birgə təşəbbüslərin sayı gündən-günə artır, TDT-nin fəaliyyəti türk xalqlarının həyatının bütün sahələrində birlik və bərabərliyinin təşviqinə xidmət edir. Bütün bunlar ortaq niyyətin, məqsədin, məsuliyyətin sərgilənməsi, dildə, fikirdə, işdə birliyin təzahürüdür. Bu birlik nə qədər möhkəmlənərsə, türk dünyasının qlobal miqyasda sözü, çəkisi, mövqeyi də bir o qədər güclü olacaq".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Türk dünyasının yeni əsri - gələcəyə hesablanan sarsılmaz birlik

**XXI əsr türk dünyasının tarixində yeni mərhələ kimi yadda qalır. Bu gün türk xalqlarını yalnız ortaq dil, soy və zəngin mədəni irs birləşdirmir, eyni zamanda böyük coğrafiyanı vahid məqsəd ətrafında bir araya gətirir.**

Məhz bu yeni mərhələdə Azərbaycan türk dünyasının aparıcı birləşdirici qüvvələrindən biri kimi çıxış edir. Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti sayəsində ölkəmiz türk dövlətləri arasında etibarlı tərəfdaşa, Bakı isə ortaq qərarların qəbul edildiyi, mühüm təşəbbüslərin irəli sürüldüyü və gələcəyə istiqamət verən nüfuzlu siyasi, elmi və mədəni mərkəzə çevrilib.

Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikri təsadüfi deyil. Bu fikir müasir Azərbaycanın türk dünyasına münasibətinin siyasi manifesti olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik kursunun məntiqi davamıdır. Türk xalqlarının tarixi yaxınlığını, ortaq mənəvi köklərini və gələcək əməkdaşlığını daim yüksək qiymətləndirən Ulu Öndər türk dünyasının birliyini Azərbaycanın milli maraqlarının mühüm istiqamətlərindən biri hesab edirdi.

Ümummilli Lider Heydər Əliyevin "Türk dünyasının birliyi bizim üçün həmişə çox böyük əhəmiyyət kəsb edib və gələcəkdə də belə olacaq" fikri bu gün siyasi reallığa çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl siyasət nəticəsində Azərbaycan Türk Dövlətləri Təşkilatında (TDT) əməkdaşlığın dərinləşdirilməsində, ortaq layihələrin həyata keçirilməsində, humanitar və mədəni əlaqələrin genişləndirilməsində, beynəlxalq platformalarda qarşılıqlı dəstəyin gücləndirilməsində aparıcı rol oynayır. Elə buna görə də Bakı yalnız Azərbaycanın paytaxtı deyil, bütövlükdə türk dünyasının mühüm siyasi, elmi və mədəni mərkəzidir.

Təsadüfi deyil ki, məhz ölkəmizdə keçirilən "Türk Dünyası Həftəsi" növbəti beynəlxalq tədbirdən daha böyük məna daşıyır. Bu mötəbər toplantı tarixlə müasirlik arasında qurulan mənəvi və siyasi körpünün parlaq təcəssümüdür. O, bir daha göstərir ki, bir əsr əvvəl böyük türk ziyalılarının arzuladığı birlik ideyası bu gün real siyasi, iqtisadi, elmi və humanitar əməkdaşlıq müstəvisində öz təcəssümünü tapır.

Tarix göstərir ki, böyük ideyalar heç vaxt bir gündə yaranmır. Onlar əsrlərin sınağından keçir, müxtəlif nəsillərin mübarizəsi ilə zənginləşir və zaman yetişəndə gerçəkliyə çevrilir. Türk dünyasının birliyi də məhz belə ideyalardandır. Orxon-Yenisey abidələrində əks olunan dövlətçilik düşüncəsi, Bilgə Xaqanın "Ey türk milləti, özünə dön!" çağırışı, Yusif Balasaqunlunun dövlət idarəçiliyi haqqında müdrik fikirləri, Mahmud Kaşğarinin türk dillərinin zənginliyini dünyaya tanıdan irsi, Nizami Gəncəvinin humanizm fəlsəfəsi, Məhəmməd Füzulinin mənəvi kamillik çağırışları, İsmayıl Qaspıralının "Dildə, fikirdə, işdə birlik" ideyası və Mustafa Kamal Atatürkün türk dünyasının gələcəyi ilə bağlı uzaqgörən baxışları eyni mənəvi yolun bir-birini tamamlayan halqalarıdır.



XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan milli ziyalıları da bu ideyanın inkişafına öz mühüm töhfələrni verdilər. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə və digər görkəmli fikir adamları türk xalqlarının ortaq milli-mədəni dəyərlərinin qorunmasını gələcəyin əsas şərtlərindən biri hesab edirdilər. Onların irəli sürdükləri ideyalar sonralar bütöv bir coğrafiyanın siyasi, mədəni və mənəvi inkişaf istiqamətlərinə təsir göstərdi.

Bu mənada 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay xüsusi tarixi əhəmiyyət daşıyır. Həmin qurultay yalnız elm adamlarının toplantısı deyildi, bu həm də türk xalqlarının ortaq elmi düşüncəsinin, ortaq əlifba ideyasının, dil və mədəniyyət sahəsində əməkdaşlığın əsasının qoyulduğu möhtəşəm tarixi hadisə idi. Dünyanın müxtəlif ölkələrindən gəlmiş yüzlərlə alim burada türk dünyasının gələcəyini müzakirə edir, elmi əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirirdi. Aradan keçən 100 ilə yaxın müddət göstərdi ki, həmin qurultayda səslənən ideyalar nəinki öz aktuallığını itirməyib, əksinə, bu gün daha geniş miqyasda həyata keçirilir.

Aradan keçən bir əsr tarix üçün böyük zaman kəsiyidir. Lakin ideyaların ömrü zamanla ölçülmür. Əgər 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni birliyinin intellektual manifesti idisə, 2026-cı ildə təşkil olunan "Türk Dünyası Həftəsi" həmin ideyanın yeni tarixi mərhələdə siyasi, iqtisadi, humanitar və strateji müstəvidə təntənəsidir. Bir əsr əvvəl alimlərin, dilçilərin və ziyalıların ortaq gələcəklə bağlı müzakirə etdikləri məsələlər bu gün müstəqil türk dövlətlərinin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Məhz buna görə də "Türk Dünyası Həftəsi"nin Bakıda keçirilməsi dərin rəmzi məna daşıyır. Paytaxtımız 100 il əvvəl türk dünyasının elm və fikir adamlarını bir araya gətirdiyi kimi, bu gün də dövlət başçılarını, siyasətçiləri, alimləri, yazıçıları, mədəniyyət xadimlərini və gəncləri ortaq məqsədlər naminə birləşdirir. Tarix, nəsillər, dünya dəyişib, lakin Bakının türk dünyasını bir araya gətirən missiyası dəyişməyib. Əksinə, o, yeni məzmun qazanaraq daha da möhkəmlənib.

Son illər Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının fəaliyyətinin yeni məzmun qazanması, iqtisadi əlaqələrin genişlənməsi, Orta dəhliz boyunca nəqliyyat və logistika layihələrinin sürətlənməsi, enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın dərinləşdirilməsi, ortaq təhsil və elm proqramlarının həyata keçirilməsi göstərir ki, türk dünyasının birliyi artıq yalnız mənəvi dəyərlərə söykənən ideya deyil, praktik nəticələr verən strateji əməkdaşlıq modelidir.

Qarabağ Zəfərindən sonra regionda yaranmış yeni geosiyasi reallıq da bu əməkdaşlıq üçün geniş imkanlar açdı. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütövlükdə türk dünyasının siyasi nüfuzunu artırdı. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bölgənin beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinə inteqrasiyası, irəli sürülən yeni təşəbbüslər isə türk dövlətləri arasında əlaqələri daha da möhkəmləndirdi.

Bu gün Azərbaycanın həyata keçirdiyi siyasət türk dünyasının gələcəyinə hesablanıb. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Zirvə görüşlərində səsləndirdiyi fikirlər ortaq məsuliyyət, qarşılıqlı etimad və həmrəylik prinsiplərinə əsaslanan inkişaf modelinin aydın ifadəsidir. Bu siyasət türk dünyasının beynəlxalq münasibətlər sistemində nüfuzunun daha da artmasına xidmət edir.

"Türk Dünyası Həftəsi" çərçivəsində keçirilən elmi konfranslar, forumlar, səfərlər, mədəni tədbirlər də sübut edir ki, ortaq tarix həm də gələcəyin inkişaf proqramıdır. Elm, təhsil, rəqəmsal texnologiyalar, innovasiya, mədəniyyət və humanitar əməkdaşlıq sahələrində irəli sürülən təşəbbüslər gələcək nəsillərin daha sıx inteqrasiyasına möhkəm zəmin yaradır.

Tarix bəzən xalqlara ikinci fürsət vermir. Türk dünyası isə bu fürsəti dəyərləndirməyi bacardı. Bir əsr əvvəl Bakıda elm və maarif naminə səslənən birlik çağırışları bu gün müstəqil türk dövlətlərinin ortaq siyasi iradəsində öz təcəssümünü tapır. Dünən böyük mütəfəkkirlərin xəyal etdiyi mənəvi birlik bu gün real əməkdaşlıq platformasına çevrilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Teatr xadimləri

# Yaratdığı obrazları tamaşaçıya sevdirməyi bacarırdı



**O, səhnəyə addım atan dəqiqədən zaldakı bütün simalara işıq gəlirdi. Böyük sənətkarın bənzərsiz ifası və səmimiyyəti onu xalqın sevimli sənətçisinə çevirmişdi. Azərbaycanın görkəmli teatr və kino aktyoru, Xalq artisti Hacıbaba Bağırovun aktyorluq üslubu özünəməxsusluğu və təkrarolunmazlığı ilə seçilirdi.**

O, təkcə mətnlə deyil, mimikaları və bədən dili ilə də danışmağı bacarırdı. Səhnədə gözlənilməz gedişlər edir, tamaşanı hər an canlı saxlayırdı. Musiqili komediya janrının tələb etdiyi vokal və ritm hissinə mükəmməl sahib idi. Aktyor səhnədə bütöv bir xalqın yumor fəlsəfəsini, Bakı koloritini və insan xarakterlərinin gizli tərəflərini yaşadırdı. Onun yumorunun mayası birbaşa xalqın içindən, folklorundan gəlirdi. Aktyorun teatr və kino tariximizə həkk etdiyi xarakterlər bu gün də ustad dərsi kimi qəbul olunur.

Hacıbaba Bağırov 1932-ci ildə Bakının qədim tarixə və adət-ənənələrə malik Maştağa kəndində anadan olub. Onun sənət yolu hamar başlamayıb. İncəsənətə olan böyük sevgisi onu hələ 1947-ci ildə Akademik Dram Teatrının nəzdindəki aktyor studiyasına gətirib. Gənc yaşlarında Dəmiryol Məktəbində oxumaq məcburiyyətində qalıb və Biləcəri deposunda maşinist köməkçisi kimi ağır fiziki əməklə məşğul olub.

Lakin aktyorluq ehtirası onu yenidən səhnəyə qaytarıb, əvvəlcə Lənkəran, daha sonra Gəncə Dövlət Dram teatrlarında çalışıb, peşəkar təcrübə toplayıb. 1960-cı ildə C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının aktyor truppasına qəbul olunub. Bu kollektivdə çalışarkən Fuad ("Almas"), Şahsuvar ("Komsomol poeması"), Rəşid ("Anacan") kimi müxtəlif səpkili rollar da oynayıb. 1962-ci ildə Musiqili Komediya Teatrına dəvət olunub. Burada fəaliyyət göstərdiyi 26 il ərzində yaratdığı 50-dən çox obrazın onun gülüş ustası kimi püxtələşməyində və populyar olmağında böyük təsiri olub. Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan"ında Soltan bəy, "O olmasın, bu olsun"da Məşədi İbad, Z.Hacıbəyovun "50 yaşında cavan"ında Orduxan, S.Ələsgərovun "Həmişəxanım"ında Cəbi Cüməzadə, "Hardasan, ay subaylıq"da Novruzəli, Ə.Abbasovun "Həyatim mənim - həyatım mənim"ində Qulam, E.Sabitoğlunun "Hicran"ında Mitoş, "Nəğməli Könül"də Fərzəli, V.Adıgözəlovun "Nənəmin şahlıq quşu"nda Cəsarət, S.Hacıbəyovun "Qızılgül"ündə Nadir, A.Məşədibəyovun "Toy kimindir"ində Uzun, E.Sabitoğlu, T.Vəliyevanın "Bankir Adaxlı", "Sizinlə gülə-gülə", "Bildirçinin bəyliyi", "92 dəqiqə gülüş" triologiyasında Sonqulu, "Məhəbbət oyunu"nda Nuruş, "On min dollarlıq keyf"də Fərzəli kimi tamaşaçıların dərin rəğbətini qazanmış rollarla milli mədəniyyətimizin inkişafına xidmət edib.

Teatrla yanaşı, kino sahəsindəki fəaliyyəti də uğurlu olub. "Ulduz"da Möhsün, "Mehman"da Arif, "Onun bəlalı sevgisi"ndə Qaraxalov, "Alma almaya bənzər"də Məmmədəli, "Şirbalanın məhəbbəti"ndə Şirbala rolları kino həvəskarları tərəfindən maraqla qarşılanıb.

1974-cü ildə respublikanın Əməkdar artisti, 1982-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb. 1998-ci ildə "Şöhrət" ordeni ilə təltif edilib. 1989-cu ildən 1996-cı ilədək yaratdığı "Tənqid-təbliğ" teatrının direktoru və bədii rəhbəri vəzifələrində çalışıb. 1996-cı ildən Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru, bədii rəhbəri və aktyoru olub. 2001-ci ildə E.Sabitoğlu, T.Vəliyevanın "Bankir adaxlı" tamaşasına görə "Qızıl Dərviş" mükafatına layiq görülüb.

Ömrünü sənətə fəda edən Xalq artisti 2006-cı ildə 74 yaşında Bakıda vəfat edib.

### Sənət fədaisi

Hacıbaba Bağırov Azərbaycan teatrında öz məktəbini yaratmış nadir sə-



nətkarlardandır. Teatr nəzəriyyəçilərinin dediklərinə görə, onun sənətkarlıq xüsusiyyətlərini şərtləndirən bir çox amil vardı. Əvvəla aktyor qəhrəmanlarını, sadəcə, güldürmək üçün deyil, onların daxili dünyasını, eybəcərliklərini və cəmiyyətdəki yerini açmaq üçün müxtəlif obrazlara həyat verirdi. Aktyorun komizmi düşündürücü və kəsərli satira üzərində qurulmuşdu. Onun səhnədəki bir baxışı, əl hərəkəti və ya duruşu tamaşaçıda bəzən dəqiqələrlə davam edən gülüş doğururdu. Səhnə hərəkətliliyindən maksimum istifadə edirdi.

Musiqili komediya janrının ən çətin tərəfi musiqi ilə aktyor oyununun sintezidir. Hacıbaba Bağırov partituranı mükəmməl hiss edir, kupletləri və rəqsləri öz dramatik oyunu ilə elə birləşdirirdi ki, tamaşaçı heç bir sünilik hiss etmirdi. O, ssenariyə kor-koranə bağlı qalan aktyor da deyildi. Dramaturqun yazdığı mətni, sadəcə, icra edən dondurulmuş aktyor tipajlarına tamamilə zidd sənətkar idi. Onun irsinin ən böyük dərsi səhnədə mütləq azadlıq fenomenidir. Səhnə tərəf-müqabillərinin oyununa və zalın reaksiyasına uyğun olaraq anındaca yeni replikalar (improvizasiyalar) tapır və bu tapıntılar əksər hallarda tamaşanın ən yaddaqalan hissəsinə çevrilirdi. Yaratdığı obrazlar məsələn, Şirbala ("Şirbalanın məhəbbəti") saf, aşiq və hər addımda çətinliyə düşən daxili dramı olan komik personajdır. Məmmədəli ("Alma almaya bənzər") həyatın içindən gələn, hazırcavab Bakı sakini tipajıdır... Bir sözlə, səhnəyə gəlişi ilə tamaşaçının daxili dünyasını alt-üst edən, insanı eyni anda həm güldürüb, həm də dərindən düşündürən böyük sənətkar idi.

Görkəmli aktyor həyat həqiqətlərini incə yumor, kəsərli satira və yüksək bədii zövqlə səhnəyə daşıyan sənət fədaisi idi. Onun milli teatr tariximizdə qoyduğu silinməz izlər, bənzərsiz aktyorluq məktəbi və unudulmaz tipajları bu gün də öz aktuallığını və bədii dəyərini qoruyub saxlayır.

### Sənətkarlıq xüsusiyyətləri

H.Bağırovun teatrda və kinoda yaratdığı obrazlar, sadəcə, personaj olmaqla bərabər, canlı insani manifestlər idi. O, səhnədə bəşəri eybəcərlikləri, milli mentalitetin xırda kələklərini və insan psixologiyasının ən qaranlıq gizlinlərini elə bir səmimi yumorla estetik formaya salırdı ki, tamaşaçı öz eybini görüb acı-acı yox, rəhm edərək gülürdü. Hacıbaba Bağırov adı bu gün də teatrdakı tam sərbəstliyin, səmimiyyətin və ssenarinin çərçivələrini darmadağın edən "orijinal" sənətkarlığın sinonimidir". Aktyor



Azərbaycan teatrında ssenari mətnini canlı orqanizmə çevirən və aktyor sərbəstliyinin sərhədlərini genişləndirən bir estetik məktəb qoyub getmişdir.

Rejissorlar və dramaturqlar onun üçün ssenaridə boş sahələr saxlayırdılar. Çünki Hacıbaba səhnədə tərəfdaşı ilə canlı təmas zamanı anındaca elə bir replika tapırdı ki, tamaşanın bədii çəkisi qat-qat artırdı. Aktyorun sənətkarlıq laboratoriyasının ən çətin tərəfi onun obrazlara yanaşma metodologiyası idi. O, mənfi və ya kələkbaz personajları birtərəfli, şablon "pislər" kimi oynamırdı. Onun ifasında Mitoş ("Hicran") və ya Möhsün ("Ulduz") cəmiyyətdəki neqativ tiplər olsalar da, sənətkar onlara insanı özünə çəkən şarm bəxş edirdi. Tamaşaçı onun qəhrəmanlarının fırıldaqlarına nifrət etmir, əksinə, insanın daxili zəifliklərinə, düşdüyü gülünc vəziyyətlərə rəhm edərək gülürdü. Bu, dayaz komizm deyildi, insan daxilindəki boşluqların sənətkar tərəfindən humanistcəsinə ifşası idi.

Musiqili teatrda aktyorun həm mahnı oxuması, həm rəqs etməsi, həm də obrazın daxili psixoloji sarsıntılarını çatdırması yüksək sənətkarlıq tələb edən sahədir. Böyük aktyorun irsində səssiz qaldığı anlar sözlərdən daha çox şey ifadə edirdi. Bircə dəfə gözünü qırpması, çiynini çəkməsi və ya səhnədəki spesifik yerişi bütöv bir sosioloji tipajı xarakterizə etməyə bəs edirdi. Hacıbaba Bağırov öz köklərinə - doğulduğu Maştağa mühitinə və Bakı folkloruna dərindən bağlı idi. Onun yaradıcılıq irsi həm də bir etnoqrafik xəzinədir. "Küçə səmimiyyəti teatrda" deyilən bir ifadə var. Bu Hacıbaba Bağırovun yaradıcılıq irsinə məxsus idi. O, xalqın içindəki canlı dili, Bakı küçələrinin bənzərsiz koloritini, jarqonları və frazeoloji birləşmələri akademik səhnə estetikasına zərər vurmadan teatra daşımışdı. Bu da onun oyununa xüsusi bir səmimiyyət və xalq peşəkarlığı gətirirdi.

Azərbaycan teatr tarixində aktyor üçlüyü çox olub, lakin Hacıbaba Bağırov, Nəsibə Zeynalova və Səyavuş Aslan üçlüyü teatrımızın gerçək və emosional yaddaşında tamamilə fərqli bir mərhələdir. Bu 3 nəhəng sənətkarın eyni səhnəni paylaşması, sadəcə, 3 aktyorun oyunu deyil, milli yumor və teatr estetikası dərsi idi. Sabit Rəhmanın müəllifi olduğu, Emin Sabitoğlunun musiqilər bəstələdiyi "Hicran" musiqili komediyası bu sənətkarların yaradıcılıqlarında ən yüksək nöqtə idi.

Hər 3 sənətkarın yaradıcılıq irsindəki ən böyük ortaq cəhət mənfi xarakterləri xalqa sevdirmək bacarığı idi. Onlar birlikdə səhnəyə çıxanda tamaşaçı bu insanların toqquşmasını izləyirdi, zal nifrət etmək əvəzinə onlara heyran olurdu. Onlar mənfi obrazı estetik cəhətdən elə bir yüksək səviyyədə oynayırdılar ki, obrazın mənfiliyi sənətin gözəlliyinə çevrilirdi. Hacıbaba Bağırov, Nəsibə Zeynalova və Səyavuş Aslan üçlüyü Azərbaycan musiqili komediya teatrında partnyorluq mədəniyyətinin ən yüksək zirvəsidir. Onlar səhnədə bir-birlərinin rolunu oğurlamır, əksinə, bir-birnin istedadına güc-qüvvə verirdilər.

Hacıbaba Bağırovun sənət və yaradıcılıq irsi bu gün də Azərbaycan Dövlət Akademik Musiqili Teatrının divarlarında, lent yazılarına köçmüş filmlərimizdə və gənc aktyorların ondan əxz etdiyi improvizasiya cəsarətində yaşayır. O, Azərbaycan mədəniyyətinə komik obrazın daxili dramını kəşf edən böyük bir aktyorluq metodologiyasını miras qoymuşdur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Beynəlxalq əməkdaşlıq

# Universitet yeni zirvələr fəth edir

**Elm bəşəriyyətin tərəqqisini müəyyən edən qüdrətli vasitələrdəndir. Müasir dövrdə ölkələrin inkişaf səviyyəsi təkcə iqtisadi göstəricilər və ya texnoloji nailiyyətlərlə deyil, həm də onların elmi potensialı, beynəlxalq akademik əməkdaşlığa verdiyi töhfələr, ali təhsil müəssisələrinin qlobal elm məkanında tutduğu mövqe ilə ölçülür.**

Bu baxımdan beynəlxalq elmi konfranslar, sadəcə, fikir mübadiləsi aparılan platformalar deyil, yeni elmi ideyaların formalaşdığı, gələcək əməkdaşlıqların təməlini qoyan və universitetlərin beynəlxalq nüfuzunu möhkəmləndirən mühüm hadisələrdir. Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) keçirilən "Riyaziyyat, mexanika və onların tətbiqlərinin müasir problemləri" II Beynəlxalq Konfransı - MPMMA 2026 məhz belə əhəmiyyətli elmi platformalardan biri kimi diqqəti cəlb etdi. Bu mötəbər tədbir universitetin son illər elmi inkişaf strategiyasının, beynəlxalq əməkdaşlıq siyasətinin və qlobal akademik məkana inteqrasiya istiqamətində qazandığı uğurların real təzahürü oldu.



Elm və Təhsil Nazirliyi, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Gürcüstan Universiteti, Türkiyənin Yıldız Texniki Universiteti və Elm və Təhsil Nazirliyinin Riyaziyyat İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən konfrans elm adamlarını vahid məqsəd ətrafında bir araya gətirdi. Dünyanın 22 ölkəsindən təqdim olunan 178 elmi məruzə, onlardan 82-nin xarici həmmüəlliflərlə hazırlanması tədbirin beynəlxalq miqyasını və elmi nüfuzunu aydın şəkildə nümayiş etdirdi.

Bu rəqəmlər təsdiq edir ki, AzMİU artıq yalnız ölkənin aparıcı mühəndislik ali məktəblərindən biri deyil, eyni zamanda beynəlxalq elmi əməkdaşlığın fəal iştirakçısına çevrilməkdədir. Universitetdə formalaşan müasir elmi mühit, geniş tərəfdaşlıq əlaqələri və aparılan məqsədyönlü islahatlar onun dünya elm məkanında mövqeyini ildən-ilə möhkəmləndirir.

Ənənəvi olaraq memarlıq, inşaat, şəhərsalma və mühəndislik sahələri üzrə ixtisaslaşan AzMİU bu gün fəaliyyət istiqamətlərini daha da genişləndirərək riyaziyyat, mexanika, süni intellekt, informasiya təhlükəsizliyi, rəqəmsal texnologiyalar, struktur mexanikası, biomatematika və optimallaşdırma kimi müasir elmi istiqamətlərdə də mühüm tədqiqatlar aparır. MPMMA 2026 konfransı universitetin klassik mühəndislik məktəbini müasir elmi çağırışlarla uğurla uzlaşdırdığını bir daha nümayiş etdirdi.

Müasir mühəndislik yalnız texniki biliklərə söykənmir, eyni zamanda "ağıllı şəhər"lər, enerji səmərəliliyi, rəqəmsal infrastruktur, təhlükəsizlik sistemləri, nəqliyyat-logistika şəbəkələri və dayanıqlı tikinti texnologiyaları riyazi modelləşdirmə, süni intellekt və məlumat analitikası olmadan təsəvvür edilmir. AzMİU-nun məhz bu istiqamətlər üzrə beynəlxalq elmi müzakirələrə evsahibliyi etməsi universitetin gələcəyin mühəndislik modelini düzgün qiymətləndirdiyini göstərir.

Sözsüz ki, konfransın uğurla keçirilməsi universitetdə mövcud olan güclü elmi potensiala da söykənir. Hazırda AzMİU-da 600-dən çox professor-müəllim heyəti fəaliyyət göstərir. Onların sırasında Dövlət mükafatı laureatları, akademiklər, professorlar, elmlər doktorları və fəlsəfə doktorları yer alır. Universitet alimlərinin Scopus, Web of Science, ResearchGate, ORCID və digər beynəlxalq elmmetrik bazalarda fəal təmsil olunması AzMİU-nun elmi məhsuldarlığının və beynəlxalq əməkdaşlığının ildən-ilə artdığını göstərir.



Son illər əldə olunan nəticələr də bunu təsdiqləyir. AzMİU ilk dəfə QS World University Rankings 2027 reytinqində dünyanın ən yaxşı 1000 universiteti sırasına daxil olub. Universitet "Academic Reputation" göstəricisi üzrə dünya miqyasında 567-ci, "Employer Reputation" üzrə isə 453-cü yerdə qərarlaşıb. Bu nailiyyətlər ali təhsil müəssisəsinin beynəlxalq akademik ictimaiyyət tərəfindən etimad qazandığını, məzunlarının isə əmək bazarında rəqabət qabiliyyətinin yüksəldiyini göstərir.

Bununla yanaşı, universitetdə beynəlxalq elmi bazalarda indeksləşən nəşrlərin sayının, sitat göstəricilərinin və elmi məhsuldarlığın sürətlə artması da diqqət çəkir. Web of Science və Scopus bazalarında yüzlərlə elmi məqalənin yer alması, H-index göstəricilərinin yüksəlməsi, eləcə də konfrans çərçivəsində seçilən 25 ən aktual məruzənin Scopus bazasında indeksləşdirilə bilməsi AzMİU alimlərinin beynəlxalq elmə verdiyi töhfələrin daha da genişlənəcəyindən xəbər verir.

Universitetdə fəaliyyət göstərən müasir elmi-tədqiqat laboratoriyaları, Süni İntellekt Mərkəzi, Risklərin Qiymətləndirilməsi və İdarə Olunması Elmi-Tədqiqat Mərkəzi, Riyazi Analiz Laboratoriyası və Zəlzələ Araşdırmaları Mərkəzi AzMİU-nun elmi infrastrukturunun davamlı olaraq gücləndirildiyini nümayiş etdirir. Bu elmi baza universitetin yalnız təhsil verən deyil, həm də yeni bilik yaradan mühüm tədqiqat mərkəzinə çevrildiyini təsdiqləyir.

Konfransın digər mühüm üstünlüyü beynəlxalq elmi diplomatiyanın inkişafına verdiyi töhfədir. ABŞ, Almaniya, Kanada, Türkiyə, Gürcüstan, Polşa, İtaliya, Hindistan, Serbiya, İsrail, Qətər, Çexiya, Özbəkistan, İraq və digər ölkələrdən alimlərin AzMİU-da bir araya gəlməsi yeni elmi əməkdaşlıqların qurulmasına, ortaq layihələrin hazırlanmasına, qrant proqramlarının həyata keçirilməsinə və gənc tədqiqatçıların beynəlxalq akademik mühitə inteqrasiyasına geniş imkanlar açır.

Doktorantlar, magistrantlar və gənc alimlər üçün belə konfranslar əvəzsiz məktəb rolunu oynayır. Dünyanın müxtəlif ölkələrindən gələn tanınmış alimlərlə eyni elmi mühitdə olmaq, müasir tədqiqat metodlarını yaxından öyrənmək, yeni əməkdaşlıq əlaqələri qurmaq gələcək elmi fəaliyyət üçün mühüm təcrübə qazandırır.

Son illər AzMİU-da həyata keçirilən beynəlmiləlləşmə siyasəti, ikili diplom proqramlarının genişləndirilməsi, xarici tələbələrin sayının artması, beynəlxalq tərəfdaşlıq şəbəkəsinin möhkəmləndirilməsi və elmi konfransların təşkilinə xüsusi önəm verilməsi universitetin inkişaf strategiyasının ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini göstərir. MPMMA 2026 isə bu strategiyanın növbəti uğurlu mərhələsi kimi yadda qaldı.

Keçirilən beynəlxalq konfrans bir daha sübut etdi ki, Azərbaycan Memarlıq və İnşaat Universiteti yalnız memar və mühəndis hazırlayan ali təhsil müəssisəsi deyil, həm də müasir elmin, innovativ texnologiyaların, süni intellektin, rəqəmsal transformasiyanın və beynəlxalq akademik əməkdaşlığın qovuşduğu nüfuzlu elm mərkəzidir.

MPMMA 2026-nın əsas nəticəsi də məhz budur: AzMİU öz inkişafını yalnız auditoriyalar və laboratoriyalarla məhdudlaşdırmır. Universitet yeni ideyaların formalaşdığı, beynəlxalq elmi əməkdaşlığın dərinləşdiyi, Azərbaycan elminin nüfuzunun dünyada yüksəldiyi mühüm akademik platformaya çevrilir. Bu isə təkcə universitetin deyil, bütövlükdə ölkəmizin elm və ali təhsil sahəsində qazandığı uğurların, gələcəyə hesablanmış inkişaf strategiyasının və intellektual potensialının ən parlaq göstəricilərindən biridir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# II Opera Günləri "Otello"nun premyerası ilə yekunlaşıb

**Heydər Əliyev Sarayında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında görkəmli italyan bəstəkarı Cüzeppe Verdinin "Otello" operasının premyerası keçirilib.**



Teatrdan bildirilib ki, premyera ilə eyni zamanda II Opera Günlərinin təntənəli bağlanış mərasimi də baş tutub.

Əməkdar artist Əyyub Quliyevin dirijorluq etdiyi tamaşanın quruluşçu rejissoru Xalq artisti Azər Zeynalov, kostyum üzrə rəssam Ulya Abdullayeva, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, konsertmeysterlər isə Daniil Kirillov, Roza Səlimova və Tofiq Şıxıyev olublar.

Premyerada əsas partiyaları Azərbaycanın tanınmış opera solistləri ifa ediblər.

# *Əməkdar artist:* "Hacı Qara"nın yeni quruluşunda əsas obraza fərqli yanaşılıb"

**"Hacı Qara"nın yeni quruluşunda əsas obraza fərqli yanaşılıb. Daha çox müsbət qəhrəman obrazında görünən Hacı Qaranın qənaətcil, cəsarətli xüsusiyyəti ön planda təqdim olunur. Həmçinin bu obrazı ehtiyac sahiblərinə yardım edən, el-obanın ağsaqqalı kimi görə bilirik".**



Bunu AZƏRTAC-a açıqlamasında tamaşada Hacı Qara obrazını canlandıran Əməkdar artist Elnur Bəhramxan deyib.

Əməkdar artist qeyd edib ki, tamaşada sevgi, məhəbbət, dostluq, sədaqət, ailə dəyərləri və vətənpərvərlik kimi mühüm mövzular öz əksini tapıb. "Səhnə əsərinin hazırlıq prosesi aylarla davam etdi. Quruluşçu rejissor Xalq artisti Cənnət Səlimova çalışırdı ki, səhnə əsəri əvvəlki quruluşlardan fərqlənsin və tamaşaçıya tamamilə yeni yozum təqdim olunsun. Hər tamaşaçı bu mövzulardan özünə daha yaxın olanı seçəcək və əsərdə özünə doğma məqamlar tapacaq".






# Niderlandlı futbolçular təhqirlərə məruz qalıblar

**Niderland millisinin futbolçuları dünya çempionatında mübarizəni dayandırdıqdan sonra sosial şəbəkələrdə irqçi təhqirlərə məruz qalıblar. Bu barədə Niderland Kral Futbol İttifaqı bəyanat yayıb.**

Bəyanatda bu cür halların qəbuledilməz olduğu vurğulanıb: "Komandanın dünya çempionatı ilə vidalaşmasından sonra sosial şəbəkələrdə futbolçulara qarşı irqçi təhqirlərin yer aldığı paylaşımlar müşahidə olunur və bu məsələdə mövqeyimiz qətidir. Bu kimi hallara nə futbolda, nə internetdə, nə də cəmiyyətdə yer var".

Qeyd edək ki, Niderland millisi dünya çempionatının 1/16 final mərhələsində Mərakeşlə əsas və əlavə vaxtı 1:1 hesabı ilə başa çatan oyunun penaltilər seriyasında məğlub olaraq (2:3) turnirlə vidalaşıb. Bu məğlubiyyətdən sonra yığmanın baş məşqçisi Ronald Kuman sosial şəbəkə hesabı vasitəsilə vəzifəsindən ayrıldığını açıqlayıb.

# Emers Fae üzgündür



**1/16 final mərhələsində Norveç millisinə 1:2 hesabı ilə uduzaraq mübarizəni dayandıran Fil Dişi Sahili yığmasının baş məşqçisi Emers Fae yenilgini şərh edib.**

O, oyundan sonra baş tutan mətbuat konfransında belə danışıb: "Futbol elə oyundur ki, gərək yaxaladığın fürsətləri qola çevirəsən. Hesabı bərabərləşdirməklə işin ən çətin hissəsini gördük. Amma təəssüf ki, sona yaxın qapımıza vurulan qol yekun nəticəni müəyyənləşdirdi. Bu, həqiqətən də, üzücüdür. Futbolçularımız mübarizəni sonadək davam etdirdilər. Qarşımızda böyük əzmlə oynayan, yaxşı müdafiə olunan və nəticədə növbəti mərhələyə vəsiqə qazanan bir komanda var idi. Bu səviyyədə oyunların taleyini xırda detallar həll edir. Rəqibin kimliyindən asılı olmayaraq, ilk dəqiqədən sonadək diqqətli və intizamlı olmalısan. Bu, komandadakı hər kəs üçün ilk dünya çempionatı idi. Futbolçular çox dəyərli təcrübə qazandılar. İndi isə qarşıdakı sınaqlara hazır olmağa, daha güclü qayıtmağa çalışacağıq".

# 40 illik həsrətə son

**Meksika millisi tarixi uğura imza atıb. Şimali Amerika təmsilçisi 1/16 final mərhələsində Ekvador üzərində 2:0 hesablı qələbə qazanaraq adını növbəti mərhələyə yazdırıb.**

Bu nəticə ilə meksikalılar dünya çempionatlarında 40 ildən sonra ilk dəfə pley-offun ilk mərhələsini keçib. Meksika yığması sonuncu dəfə 1986-cı ildə keçirilən mundialda ilk pley-off matçından qalib ayrılmışdı. Sonrakı 8 mundialda isə meksikalılar 1/8 finala yüksələ bilməmişdilər.



# Braziliya yığmasında ciddi itki



**Braziliya millisinin yarımmüdafiəçisi Lukas Paketa zədə səbəbindən 1/8 final oyununu buraxacaq.**

Yaponiya üzərində 2:1 hesablı qələbə ilə başa çatan 1/16 final matçında budun arxa nahiyəsində ağrı hiss edən futbolçu ilk hissəni başa vursa da, fasilədə əvəzlənib. Braziliya Futbol Federasiyasının məlumatına görə, tibbi müayinə nəticəsində futbolçunun sol budunun arxa əzələsində zədə olduğu təsdiqlənib. Paketa bu zədə səbəbindən dünya çempionatının 1/8 final mərhələsində komandasına kömək edə bilməyəcək.

# Yamal Vinisiusu bəyəndiyini deyir



**İspaniya millisinin hücumçusu Lamin Yamal hazırda davam edən DÇ-2026-da hansı oyunçunun onu heyran qoyması ilə bağlı sualı cavablandırıb.**

COPE Yamalın fikirlərini belə təqdim edib: "Vinisius Juniorun bu dünya çempionatında göstərdiyi oyunları çox bəyənirəm. O, əla turnir keçirir. Əlbəttə ki, Messini də qeyd edə bilərəm... Bir də Mərakeş millisinin hücumçusu İsmael Saibari. Vurduğu qollar bir kənara, əla oynayır".

# İsveç yığmasının baş məşqçisi məğlubiyyətlərindən danışdı

**1/16 final mərhələsində Fransa seçməsinə 0:3 hesabı ilə uduzaraq mübarizəni dayandıran İsveç yığmasının baş məşqçisi Qrem Potter fikirlərini bölüşüb.**



İngilis mütəxəssis matçın ardından təşkil edilən mətbuat konfransında belə danışıb: "Bu mundialda Fransadan daha güclü komanda görməmişəm. Düzü, bu gün mükəmməl oynasaydıq belə onları üstələyəcəyimizə əmin deyildim. Rəqibin bütün mövqelərdə yüksəksəviyyəli futbolçuları var. Bizə qarşı oyunda nəyə qadir olduqlarını bir daha ortaya qoydular. Fransa çox keyfiyyətli komandadır və bu oyunda qələbəni tam şəkildə haqq edirdi. Uduzmağımıza baxmayaraq, turniri başıuca tərk edirik. Gənc komandamız dünya çempionatında böyük təcrübə qazandı, inkişaf yolu keçdi. Qrup mərhələsində çətinliklərin öhdəsindən gəldik və pley-offa yüksəldik. Bu təcrübə gələcəkdə bizə çox faydalı olacaq".

# "Komandamla inanılmaz dərəcədə qürur duyuram"

**Fransa millisinin baş məşqçisi Didye Deşam komandasının dünya çempionatının 1/16 final mərhələsində İsveç üzərində 3:0 hesablı qələbəsini şərh edib.**



Təcrübəli mütəxəssis həmçinin 1/8 finalda Paraqvayla keçiriləcək oyun barədə də danışıb: "Komandamla inanılmaz dərəcədə qürur duyuram. Artıq nələrə nail olduğumuzu qiymətləndirə bilərik. Məqsədimizə çatmaq yolundayıq. Mən də onlarla birlikdəyəm. Şanslarımızı daha effektiv şəkildə qola çevirə bilsək də, başqa imkanlarımız da var idi. Bizi qarşıda daha bir çətin matç gözləyir. Oyunçular bu kimi oyunlar üçün buradadırlar. Daha bir vacib addımı atmaq lazımdır. Çox irəli baxmağın mənası yoxdur, çünki reallıq sizi bir anda göydən yerə endirə bilər. Bizim potensialımız var, amma bunu dörd gün ərzində bir daha sübut etməliyik. Paraqvay? Cənubi Amerika komandalarının xüsusi DNT-si var. Onlar hər anı qiymətləndirə bilir və heç vaxt təslim olmurlar. Biz tələsməyəcəyik. Bu qələbənin dadını çıxarmaq üçün iki günümüz var və sonra işə qayıdacağıq".

# Messi yalnız futbolçu deyil, həm də...

**Argentina millisinin kapitanı Lionel Messi "Sony Pictures" kinostudiyasının yeni "Hörümçək adam: Yeni gün" filminin tanıtım çarxında rol alıb. Bu barədə kinostudiya "X" sosial şəbəkəsində paylaşım edib.**



Videonun süjetinə əsasən, Messi Nyu Yorkdakı mağazalardan birinə daxil olur və burada Piter Parkerlə (britaniyalı aktyor Tom Hollandın ifasında) qarşılaşır. Futbolçunu görən Parker təəccübdən yerə yıxılır, daha sonra isə ondan burada nə etdiyini soruşur. Messi telefonundakı tətbiqi göstərərək "hörümçək adam"ı axtardığını bildirir. Ardınca Parker hiss etdirmədən superqəhrəman kostyumunu geyinir və Messidən yüksəklikdən qorxub-qorxmadığını soruşur. Video boyu yalnız ispan dilində danışan argentinalı futbolçu bu sualı anlamır. Növbəti kadrda isə o, artıq "hörümçək adam"la birlikdə Nyu Yorkun üzərində uçur.

Filmin dünya premyerasının iyulun 29-da keçirilməsi planlaşdırılır.

# Kimmix təslim olmaq istəmir



**Almaniya millisinin yarımmüdafiəçisi Yoşua Kimmix yığmadakı karyerasını başa vurmaq niyyətində deyil. 31 yaşlı futbolçu milli komandasının uğursuzluğu ilə bağlı açıqlama verib.**

Kimmix hər zaman yeni çağırışlara hazır olduğunu bildirib: "Xalqımızı məyus etdik. Kapitan kimi məsuliyyəti öz üzərimə götürürəm. Məndə həmişə daha bir cəhd üçün güc olacaq. Heç vaxt etməyəcəyim şey isə təslim olmaqdır".

Xatırladaq ki, Almaniya millisi DÇ-2026-nın 1/16 finalında Paraqvaya penaltilər seriyasında uduzub. Əsas və əlavə vaxtı 1:1 hesabı ilə başa çatan görüşdə Paraqvay penaltilərdə 4:3 hesablı qələbə qazanıb.

# Mbappe bombardirlik yarışında ilk sıraya yüksəldi



**DÇ-2026-da bombardirlik yarışında Fransa millisinin hücumçusu Kilian Mbappe liderliyə yüksəlib. O, hesabında 6 qol və 2 assistlə FIFA-nın "Golden Boot" (Qızıl buts) siyahısına başçılıq edir.**

Eyni sayda - 6 qola malik Argentina millisinin kapitanı Lionel Messi isə qol ötürməsi olmadığı üçün 2-ci pillədə qərarlaşıb. İlk "3-lüy"ü 5 qolla Norveç yığmasının hücumçusu Erlinq Holann tamamlayır.

| | | |
|---|---|---|
| 1. Kilian Mbappe (Fransa) | - | 6 qol, 2 assist |
| 2. Lionel Messi (Argentina) | - | 6 qol |
| 3. Erlinq Holann (Norveç) | - | 5 qol |
| 4. Usman Dembele (Fransa) | - | 4 qol, 2 assist |
| 5. Vinisius Junior (Braziliya) | - | 4 qol, 1 assist |

# Stolle Solbakken qələbəni dəyərləndirib

**1/16 final mərhələsində Fil Dişi Sahili millisinə 2:1 hesabı ilə qalib gələrək 1/8 finala adlayan Norveç yığmasının baş məşqçisi Stolle Solbakken qələbəni dəyərləndirib.**



O, qarşılaşmadan sonra baş tutan mətbuat konfransında belə danışıb: "Oyunun sonlarına yaxın üzərimdə böyük psixoloji təzyiq hiss edirdim. Bu, mənimlə bağlı deyil. Söhbət futbolçulardan, məşqçilər heyətindən və uzun müddətdir ki, bu komanda üçün çalışan hər kəsdən gedir. Onların həm çəkdiyi əziyyəti, həm də yaşadığı sevinci görəndə istər-istəməz duyğulanırsan. Dünya çempionatı yolunda həqiqətən çox əziyyət çəkmişik. Matçın ardından ilk olaraq ailəmin yanına getdim. Onların da nələr hiss etdiyini yaxşı bilirəm. Hələ Braziliyaya qarşı keçirəcəyimiz oyun haqda düşünməmişəm".

Qeyd edək ki, "Vikinqlər" 1/8 finalda Braziliya ilə üz-üzə gələcəklər.

# Fransızlardan mundial tarixində mütləq rekord

**Fransa milli komandası dünya çempionatlarında ardıcıl 5 oyunda 3 və daha çox qol vuran ilk yığma kimi tarixə düşüb. Bu barədə "Squawka" sosial şəbəkə hesabında məlumat yayıb.**



Fransa yığması dünya çempionatının 1/16 final mərhələsi çərçivəsində İsveç seçməsi üzərində 3:0 hesablı qələbə qazanıb.

Fransızlar bundan əvvəl Norveç (4:1), İraq (3:0) və Seneqalı (3:1) məğlub ediblər. DÇ-2026-nın 1/8 final mərhələsində Fransa millisi iyulun 6-da Paraqvay yığması ilə üz-üzə gələcək.

# Kuman da istefa verənlərin sırasına qoşuldu

**Niderland millisinin baş məşqçisi Ronald Kuman istefa verib. Bu barədə 63 yaşlı mütəxəssis sosial şəbəkə hesabında paylaşım edib.**



Kuman öz istəyi ilə vəzifəsindən ayrıldığını bildirib.

Xatırladaq ki, Niderland millisi DÇ-2026-da mübarizəni pley-off mərhələsində dayandırıb. Kumanın komandası1/16 finalda Mərakeşə penaltilər seriyasında uduzub.

# D.Tramp mundialda dəyəri 370 min dollardan çox olan hədiyyələr qəbul edib

**FIFA prezidenti Canni İnfantino ABŞ Prezidenti Donald Trampa DÇ-2026 oyunları üçün bilet hədiyyə edib. Bu barədə CNBC məlumat yayıb.**



ABŞ liderinin illik maliyyə hesabatında aldığı hədiyyələr açıqlanıb. Sənədlərə əsasən, D.Tramp ümumi dəyəri 370 min dollardan çox olan hədiyyələr qəbul edib. Onların əsas hissəsi idman tədbirlərinə biletlər olub. Hədiyyələr arasında DÇ-2026 matçları üçün 15 min dollar dəyərində 10 bilet də var. Bundan başqa, D.Trampa Superboula 10, iki UFC tədbirinə ümumilikdə 30 və müxtəlif liqaların digər idman yarışlarına biletlər verilib.

# İngilislərin əşyalarını oğurlayanların kimliyi açıqlandı

**DÇ-2026 zamanı İngiltərə millisinin əşyalarını oğurlamaqda şübhəli bilinən şəxslərin kimliyi müəyyənləşib. Bu barədə "Daily Mail" məlumat yayıb.**




Daha əvvəl İngiltərə yığmasının ləvazimatları Floridadan Kanzas-Sitidəki bazaya daşınarkən komandanın bəzi əşyaları oğurlanmışdı. Hadisədən sonra iki nəfər saxlanılıb. Saxlanılan şəxslər 40 yaşlı Mustafa Salik və 35 yaşlı Erfan Kamaldır. Əfqanıstan əsilli şəxslər ABŞ ordusuna göstərdikləri yardımdan sonra vətəndaşlıq alıblar. Onların "Vista Trans Holding" şirkətində sürücü işlədikləri və Texas ştatının San-Antonio şəhərində yaşadıqları bildirilir.

Hər iki şəxsi ittiham sübuta yetiriləcəyi halda 7 ilə qədər həbs cəzası gözləyir.

*Hazırladı:*
*Dönməz ABBASOV*

BEYNƏLXALQ HƏYAT

# ABŞ - 250: amerikalılar 4 iyulu necə qeyd edəcəklər

**Məlum olduğu kimi, Prezident Donald Tramp ABŞ-nin müstəqilliyinin 250 illiyini qeyd etmək üçün planlaşdırılan şənliklərə paytaxtdakı Milli Xiyabanda keçirilən mitinqlə başlayıb.Tədbirdə hərbi təyyarələrin uçuşu, hərbi orkestrlərin çıxışı və prezidentin nitqi yer alıb.**






"Bu gecə, müstəqilliyimizin 250 illiyinin astanasında dayanarkən bunu elan etməkdən məmnunam: Amerika geri döndü", - deyə Tramp mitinqdə bildirib.

ABŞ-nin əsasını qoyan sənəd - İstiqlal Bəyannaməsi 1776-cı ildə qəbul edildikdən bir neçə gün sonra Filadelfiyada ucadan oxunub. O vaxtdan bəri amerikalılar 4 iyulu ölkələrinin və ideallarının günü kimi qeyd edirlər.

Təxminən bir əsr əvvəl 4 iyul federal bayrama çevrilib. Amerikalı işçilərin əksəriyyəti bu günü ailə görüşləri, yerli paradlar, ziyafət məclisləri və atəşfəşanlıqla keçirərək istirahət edirlər.

Bu il ABŞ ölkənin 250 illiyini layiqincə qeyd etmək üçün rekord qıran atəşfəşanlıq və ölkə daxilində müxtəlif ölçülü tədbirlər keçirməklə möhtəşəm bir məclis planlaşdırır. İstiqlal Bəyannaməsinin orijinalı Vaşinqtondakı Milli Arxivdə saxlanılır və builki Müstəqillik Günündə binanın pilləkənlərində izdihamla ucadan oxunacaq. Vaşinqtonda keçiriləcək tədbirlərdə atəşfəşanlıq da olacaq. Budəfəki tədbirin raketlərin sayına görə yeni rekord vuracağı və şəhərin ilk ABŞ prezidentlərinə və müharibə veteranlarına həsr olunmuş mərmər abidələrinin üzərindəki gecə səmasını işıqlandıracağı gözlənilir.

Ölkə bu il 250 illik yubileyini qeyd etdiyi üçün tədbirlər 4 iyuldan sonra da davam edəcək. Milli Xiyaban Amerika mətbəxini və mədəniyyətini nümayiş etdirəcək "Böyük Amerika dövlət sərgisi" ilə canlandırılacaq. Sərgidə Alyaskadan buz heykəlləri, Havaydan hula rəqsi və Men ştatından xərçəng ruletləri da daxil olmaqla ABŞ-nin 50 ştatını təmsil edən xüsusi ekspozisiyalar nümayiş etdiriləcək. Həmçinin ABŞ Botanika Bağında bütün 50 ştatdan gətirilən güllər sərgiləsəcək. Bunlardan əlavə, ölkə daxilində məktəb nəfəsli orkestrlərinin, yerli siyasətçilərin və yerli icmalar tərəfindən yaradılan platformaların paradları insanları küçələrə çıxaracaq. Digər bayram tədbirləri müxtəlif turnirlərdən tutmuş sərgilərə, canlı konsertlərdən tarix seminarlarına qədər həm yeni, həm də köhnə Amerika mədəniyyətini əhatə edəcək.

Yubiley çərçivəsində əsas tədbirlər Vaşinqtonda kulminasiya nöqtəsinə çatacaq. Proqrama rekord sayda atəşfəşanlıq nümayişləri, möhtəşəm dövlət yarmarkaları, musiqi festivalları və xüsusi idman yarışları daxildir.

Bir sözlə, ABŞ-nin 250 illik yubileyi amerikalılar üçün əylənmək və ölkənin təməlini qoyan prinsiplər və onların davamlı dəyəri üzərində düşünmək üçün bir fürsət olacaq.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# Latın Amerikasında sağçıların yeni qələbəsi: Keyko Fuhimori Peru Prezidenti seçilib

## O, dördüncü cəhdində uğur qazanıb

**Mühafizəkar siyasətçi Keyko Fuhimori Peruda keçirilən prezident seçkilərinin ikinci turunda solçu namizəd Roberto Sançesi məğlub edərək qalib gəlib.**



1990-cı illərin sonlarında Peru prezidenti olmuş və insanlığa qarşı cinayətlərdə ittiham edilmiş Alberto Fuhimorinin 51 yaşlı qızı cinayətkarlıq və üsyanla güclü mübarizə aparan atasının yolunu davam etdirəcəyinə söz verir. Keyko Fuhimori son 15 ildir ki, prezidentliyə namizədliyini irəli sürür və hər dəfə fərqli baxışlara malik rəqibləri Fuhimori ailəsinin üzvünün prezident olmasının qarşısını almaq üçün birləşirdilər. Nəhayət, o, dördüncü cəhdində uğur qazanıb. Səslərin yenidən sayılması üç həftədən çox davam edib və Fuhimorinin qələbə fərqi onilliklər ərzində ən kiçik fərqlərdən biri olub.

Fuhimorinin əsas kampaniya vədi cinayətkarlıqla mübarizə aparmaqdır. Bununla Fuhimori atasının irsini inkişaf etdirməyə söz verib. "Bütün enerjimiz nə edəcəyimizi bildiyimizə yönələcək: cinayətkarlığa qarşı güclü bir əllə hərəkət etmək", - deyə o bildirib.

İyulun 28-də vəzifəsinin icrasına başlayacaq 51 yaşlı Keyko Fuhimori Perunun seçilmiş ilk qadın prezidenti və bu vəzifəni tutan ikinci qadındır. Dina Boluarte bu vəzifəni 7 dekabr 2022-ci ildən 10 oktyabr 2025-ci ilə qədər tutub. O, vitse-prezident vəzifəsində çalışdığı zaman ölkə başçısı Pedro Kastilyonun impiçmentindən sonra Konstitusiyaya uyğun olaraq prezidentin səlahiyyətlərini icra edib.

Son illər ölkədə davamlı siyasi böhranlar yaşanıb, bir çox prezident impiçment və korrupsiya ittihamları səbəbindən vəzifəsindən kənarlaşdırılıb. O üzdən Fuhimori son 10 ildə 9-cu prezident olacaq.

Keyko Fuhimori qeyd etdiyimiz kimi, 1990-cı ildən 2000-ci ilə qədər Peruya rəhbərlik etmiş mərhum keçmiş prezident Alberto Fuhimorinin qızıdır. O, mütəşəkkil cinayətkarlığa və üsyankarlığa qarşı sərt kampaniyası ilə tanınır və tərəfdarları bunu onun xidməti sayır, rəqibləri isə onu həddindən artıq qəddar tədbirlərdə, müxalifətçilərin susdurulmasında və avtoritar idarəetmə tərzində ittiham edirlər. Onun hakimiyyətinin sonunda Peruda siyasi böhran baş verib. A.Fuhimori valideynlərinin vətəni olan Yaponiyaya qaçıb və oradan faksla istefa verməyə çalışıb. Konqres istefanı rədd edib və əvəzində onu vəzifəsindən uzaqlaşdırmaq üçün səs verib. Peru hakimiyyətinin tələbi ilə 2003-cü ilin mart ayında "İnterpol" A.Fuhimori barədə qətl, adam oğurluğu və insanlığa qarşı cinayətlər, o cümlədən Amerikanın yerli xalqlarının əksəriyyətinin yaşadığı yoxsul ərazilərdə məcburi sterilizasiya ittihamları ilə həbs qərarı verib.

Tokio A.Fuhimorini Yaponiya vətəndaşlığına malik olduğuna görə ekstradisiya etməkdən imtina edib. Lakin 2005-ci ildə Çilidə saxlanılaraq Peruya ekstradisiya olunub və orada bir neçə ittiham üzrə 25 il müddətinə azadlıqdan məhrum edilib.

O, səhhətindəki problemlərə görə 2023-cü ildə azadlığa buraxılıb. 14 iyul 2024-cü ildə Keyko Fuhimori atasının 2026-cı il ümumi seçkilərində prezidentliyə namizəd olacağını elan edib. Amma Alberto Fuhimori iki ay sonra dünyasını dəyişib.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

# AFR Kansleri Dünya Kubokundan kənarda qalan milli komanda haqqında xoş sözlərinə görə tənqid atəşinə tutuldu

**Alman azarkeşləri və yerli mətbuatın milli komandanın Dünya Kubokunda pley-offun ilk raundunda mübarizədən kənarlaşdırılmasından ağrılı şəkildə sarsıldığı bir vaxtda, Kansler Fridrix Merz "Facebook" səhifəsində oyunçular üçün tərifli bir paylaşım edib və bunun cavabında futbol ehtirasları çərçivəsindən kənara çıxan tənqid atəşinə tutulub.**

Paraqvaya qarşı açıq favorit olan dördqat dünya çempionu penaltilərdə məğlubiyyətə uğrayıb (3-4). Dünya Kubokunda bu qədər erkən - 1/16 final mərhələsində məğlub olmaqla yanaşı, bu, onların tarixində ilk dəfə idi ki, mundialda penaltilərdə məğlub olurdular. Bundan əvvəl almanlar 1982-ci il Dünya Kubokunda yalnız bir penalti qaçırmışlar. Bu dəfə isə üç imkandan istifadə olunmayıb və bu da komandanın turnirdə iştirakına son qoyub.

Almaniyanın ən böyük tabloid qəzeti olan "Bild" çərşənbə axşamı əsas səhifədə aşağıdakı başlıqla çıxış edib: "Alman futbolu üçün daha bir kabus". Lakin ölkə Kansleri Fridrix Merz tamamilə fərqli bir qiymətləndirmə verib. "Çox ağrılı bir məğlubiyyət olsa da, necə də gözəl bir performans! Dünya Kubokundakı əzmkarlığınız və komanda ruhu ilə ölkəmizə ilham verdiniz. Sizinlə fəxr edirik!", - deyə o, "Facebook"da yazıb. Bundan dərhal sonra Merzə ünvanlanan qəzəbli başlıqlar və sərt şərhlər yayılıb. "Bild"in köşə yazarı Marion Horn paylaşımı "fəlakət", məğlubiyyəti isə "sarsıdıcı uğursuzluq" adlandırıb. "Dünya Kubokunda Paraqvaya qarşı amansız məğlubiyyət, məşqçi, işə münasibət və alman oyunçularının performansı - bütün bunlar ölkənin vəziyyətinin simptomatikasıdır", - deyə o bildirib. "Ən yaxşı halda biz ikinci dərəcəli ölkəyə çevrilmişik. İqtisadiyyatımız görünməmiş dərəcədə tənəzzül yaşayır: iflaslar və sənayeləşmədən çıxmalar demək olar ki, hər gün baş verir. Almaniya futbolu isə hazırda yalnız əvvəlki nüfuzu ilə yaşayır".



Horn Merzin də qürur və ilham dolu sözlərinə görə Kansleri tənqid edib: "Cənab Kansler, bu, sadəcə, doğru deyil! Mən ikinci dərəcəli statusu qəbul etməkdən imtina edirəm. Mən qürur duymuram. Mən qəzəbliyəm. Mən məyusam. Mən hiddətliyəm! Uşaqlarımız Almaniyanı yalnız məğlub kimi tanıyırlar!"

Kanslerə təzyiq o qədər güclü olub ki, 11 saat sonra Merz öz səhifəsində yenidən paylaşım edib: "Qələbələri birlikdə qeyd edirik. Məğlubiyyətdə də birlikdə oluruq. Bizi güclü edən də elə budur. Sinəsində qartal olanlar lağa yox, dəstəyimizə layiqdir".

Müşahidəçilərin fikrincə, futbolla bağlı şərhlər üzündən yaranan qalmaqal Almaniyada daha dərin bir uçurumun göstəricisidir. Bir çox tənqidçi Kanslerin paylaşımında federal hökumətin nəticəyə can atmasının itirildiyini, uğursuzluqların normaya çevrildiyini göstərən əlamətlər görür. Onlar bu münasibətin ölkənin ümumi vəziyyətinə getdikcə daha çox təsir etdiyinə inanırlar.

Qalmaqal keçirilməsi planlaşdırılan koalisiya komitəsinin iclası ərəfəsində baş verib. Alman qəzetlərinin yazdığına görə, bu görüş həm bir sıra islahatların irəliləməsi, həm də Merz hökumətinin gələcəyi üçün mühüm siyasi əhəmiyyət kəsb edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Günəş, toz, hovuz və ekranlar gözümüzün işığını alır

## Elə isə xüsusən yayda gözlərimizi necə qoruyaq?

**Yay mövsümü insanların ən çox açıq havada vaxt keçirdiyi, dəniz və hovuzlardan istifadə etdiyi, səyahətə çıxdığı dövrdür. Günəşli hava və isti günlər sağlamlıq baxımından bir çox üstünlük təqdim etsə də, bu fəsil göz sağlamlığı üçün müəyyən risklər yaradır. Güclü ultrabənövşəyi (UV) şüalar, yüksək temperatur, külək, toz, kondisionerlərin intensiv istifadəsi, hovuz və dəniz suları, eləcə də tətil dövründə telefon və planşet qarşısında keçirilən uzun saatlar gözlərdə müxtəlif problemlərin yaranmasına səbəb ola bilər. Sadə profilaktik tədbirlərə əməl etməklə bu risklərin böyük hissəsinin qarşısını almaq mümkündür.**



Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **həkim-oftalmoloq Günay Hüseynli**nin sözlərinə görə, yay aylarında həkimlərə müraciət edənlər arasında müəyyən göz xəstəlikləri olanlar daha çox üstünlük təşkil edir. Bunların sırasında ilk yerdə allergik konyunktivit dayanır. Yaz və yay aylarında havada bitki tozcuqları, polenlər və digər allergenlərin miqdarı artır. Bu maddələr gözlə təmas etdikdə allergik reaksiyalar yaranır. Nəticədə xəstələrdə gözlərdə qaşınma, sulanma, qızartı, bəzən isə göz qapaqlarında şişkinlik müşahidə edilir. Allergiyaya meyilli insanlarda bu əlamətlər daha kəskin şəkildə özünü göstərir və gündəlik həyat keyfiyyətinə mənfi təsir edir.

"Yay mövsümündə ikinci ən geniş yayılan problem quru göz sindromudur. İsti hava, külək, kondisionerlərin uzun müddət işləməsi və insanların açıq havada daha çox vaxt keçirmələri göz yaşının daha tez buxarlanmasına səbəb olur. Bu isə göz səthinin kifayət qədər nəmlənməməsi ilə nəticələnir. Quru göz sindromundan əziyyət çəkən şəxslər adətən gözlərdə yanma, göynəmə, qızartı, sanki gözün içində qum varmış kimi hiss, narahatlıq və yorğunluqdan şikayət edirlər. Xüsusilə ofis şəraitində işləyən, gün ərzində kondisionerli otaqlarda qalan və ya uzun müddət avtomobil idarə edən insanlarda bu problemə daha çox rast gəlinir", - deyə mütəxəssis qeyd edib.

Bu mövsümdə ultrabənövşəyi şüaların intensivliyi də göz sağlamlığı üçün ciddi təhlükə yaradır. Həkim bildirib ki, uzun müddət günəş altında qalmaq buynuz qişada zədələnmələrə səbəb ola bilər. Bundan başqa, uzun müddət günəşin altında qalmaq yaşlı insanlarda kataraktın inkişaf riskini artırır, tor qişanın zədələnməsi ehtimalını yüksəldir və bəzən fotokeratit adlanan günəş yanığı tipli göz zədələnməsi ilə nəticələnə bilir. Fotokeratit zamanı gözlərdə güclü ağrı, işığa qarşı həssaslıq, sulanma və görmənin müvəqqəti zəifləməsi müşahidə oluna bilər. Bu səbəbdən günəşli havalarda gözlərin qorunması yalnız rahatlıq deyil, həm də uzunmüddətli görmə sağlamlığının qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Yay mövsümündə tez-tez rast gəlinən digər problem isə göz infeksiyalarıdır. Xüsusilə hovuz və dənizdən istifadə edən insanlarda gigiyena qaydalarına əməl olunmadıqda müxtəlif bakterial və virus mənşəli infeksiyalar inkişaf edə bilər. Belə hallarda gözlərdə irinli ifrazat, qızartı, ağrı, göynəmə və işığa qarşı həssaslıq yaranır. Oftalmoloq vurğulayıb ki, bu əlamətlər müşahidə olunduqda özbaşına dərman istifadəsinə yol vermək düzgün deyil və mütləq həkimə müraciət edilməlidir: "Bəzi insanlar yayda göz problemlərinə daha həssas hesab olunur. Bunlara ilk növbədə yaşlı insanlar daxildir. Çünki yaş artdıqca həm quru göz sindromunun, həm də kataraktın yaranma ehtimalı yüksəlir. Uşaqlar da risk qrupuna daxildirlər. Onlar gün ərzində daha çox açıq havada oynadıqları üçün ultrabənövşəyi şüalara daha uzun müddət məruz qalırlar. Bundan əlavə, göz əməliyyatı keçirmiş şəxslər, açıq havada və tozlu mühitdə çalışan insanlar, eləcə də allergiyası olan şəxslər də yay aylarında gözlərini xüsusi diqqətlə qorumalıdırlar. Kondisionerlərin intensiv istifadəsi də göz sağlamlığına təsirsiz ötüşmür. Onun yaratdığı hava axını göz yaşının daha sürətlə buxarlanmasına səbəb olur və nəticədə quruluq hissi yaranır. Süni göz yaşı damcılarından istifadə etmək, gün ərzində kifayət qədər su içmək gözlərin nəmliyinin qorunmasına kömək edir".

Gözləri günəşin zərərli təsirlərindən qorumağın ən effektiv yollarından biri düzgün gün eynəyindən istifadə etməkdir. Gün eynəyi seçərkən yalnız görünüşə deyil, keyfiyyətə də diqqət yetirilməlidir. Həkim xəbərdarlıq edib ki, tünd rəngli hər bir eynək gözü ultrabənövşəyi şüalardan qorumur. Keyfiyyətli gün eynəyinin üzərində mütləq UV400 və ya "100 faiz UVA/UVB qoruma" qeydinin olması vacibdir. Bu göstərici eynəyin zərərli ultrabənövşəyi şüaları filtrasiya etdiyini göstərir. Əks halda, sadəcə, tünd şüşəli, lakin UV filtrsiz eynəklər göz bəbəyinin genişlənməsinə səbəb olur və daha çox zərərli şüanın göz daxilinə keçməsinə şərait yaradır. Bu isə göz sağlamlığı üçün daha təhlükəli hesab olunur. Uşaqlar üçün də UV qoruyuculu gün eynəyi taxmaq vacibdir. Hətta azyaşlıların göz toxumaları ultrabənövşəyi şüalara daha həssas olduğu üçün onların qorunması xüsusi əhəmiyyət daşıyır.

Yay mövsümündə kontakt linza istifadəçiləri də xüsusilə diqqətli olmalıdırlar. Günay Hüseynlinin sözlərinə görə, hovuzda və ya dənizdə kontakt linza ilə üzmək düzgün deyil və bu, ciddi fəsadlara səbəb ola bilər. Belə ki, hovuz suyunda olan xlor göz səthini qıcıqlandırır, suda olan bakteriyalar və digər mikroorqanizmlər linzanın səthinə yapışaraq infeksiya yarada bilir. Buna görə də hovuz və ya dənizə girməzdən öncə linzaların çıxarılması, mümkün olmadıqda isə üzgüçülük eynəklərindən istifadə tövsiyə edilir. Kontakt linzaları istehsalçının tövsiyə etdiyi müddətdə dəyişmək vacibdir.

"Tətil dövründə uşaqların telefon və planşet qarşısında keçirdiyi vaxtın artması da göz sağlamlığına mənfi təsir göstərən amillərdəndir. Uzun müddət yaxın məsafəyə baxmaq göz əzələlərinin gərginləşməsinə və akkomodasiya spazmına səbəb olur. Bunun nəticəsində gözlərdə yorğunluq, qaşüstü nahiyədə ağırlıq hissi və müvəqqəti bulanıq görmə yarana bilər. Ekran qarşısında diqqətin uzun müddət bir nöqtəyə yönəlməsi gözqırpma sayını azaldır. Bu isə göz yaşının daha tez buxarlanmasına və quru göz sindromunun inkişafına şərait yaradır. Bu problemlərin qarşısını almaq üçün "20-20-20" qaydası tövsiyə edilir. Bu qaydaya əsasən, hər 20 dəqiqədənbir 20 saniyə ərzində təxminən 20 fut məsafədə yerləşən obyektə baxmaq lazımdır. Bu üsul göz əzələlərinin rahatlamasına və yorğunluğun azalmasına kömək edir. Bundan əlavə, gözləri tez-tez yumub-açmaq, sağa, sola, yuxarı və aşağı istiqamətdə hərəkət etdirmək, gözlə havada səkkiz rəqəmi çəkmək, həmçinin yaxın və uzaq nöqtələr arasında baxışı növbələşdirmək kimi sadə göz gimnastikası məşqləri də faydalıdır. Bu məşqlər göz əzələlərinin gərginliyini azaldır, fokuslanma qabiliyyətini yaxşılaşdırır və uzunmüddətli ekran istifadəsinin yaratdığı yorğunluğu minimuma endirir", - deyə oftalmoloq qeyd edib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**Bakı şəhər Qaradağ rayonu, Kamran Yaqubov adına 184 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Əliyeva Zeynəb Vəkil qızına verilmiş B-030731 nömrəli ümumtəhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü
**NURLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov YAP Veteranlar Şurasının üzvü, professor
**NURLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi Bakı Slavyan Universitetinin sabiq rektoru
**NURLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadəyə anası
**NURLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları şöbənin Akkreditasiya və KİV ilə iş sektorunun müdiri Ceyhun Quliyevə, əzizi
**NURLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası
**ZEMFİRA ŞAHBAZOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 2997
Sifariş 835

Qiyməti 60 qəpik